AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

10 MART 2019-cu il BAZAR № 56 (6383) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev Rusiya Yəhudi Konqresinin prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Rusiya Yəhudi Konqresinin prezidenti Yuri Kannerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Rusiya Yəhudi Konqresinin prezidenti Yuri Kanner səfər çərçivəsində Quba şəhərinə getdiklərini, Azərbaycanın regionlarında inkişaf proseslərinin şahidi olduqlarını, ölkəmizdə bütün xalqların nümayəndələrinin, o cümlədən yəhudilərin firavan yaşamaları üçün hər cür şəraitin yaradıldığını vurğuladı və bunu yüksək qiymətləndirdi.

Azərbaycanda ayrı-ayrı xalqların və dini icmaların əsrlər boyu bir ailə kimi yaşadıqlarını deyən Prezident İlham Əliyev ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, o cümlədən yəhudilərin əmin-amanlıq içərisində yaşamaları üçün lazımi şəraitin mövcud olduğunu bildirdi. Dövlətimizin başçısı Azərbaycanda sivilizasiyalar və mədəniyyətlər arasında dialoqun möhkəmləndirilməsi ilə bağlı mühüm beynəlxalq tədbirlərin keçirilməsinin əhəmiyyətini qeyd etdi.

**AZƏRTAC**

## "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Minimum aylıq əməkhaqqının artırılması və "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 937 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 3, maddə 511, N 7 (II kitab), maddə 1574, N 11, maddə 2287) aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 1-ci hissədə "165" rəqəmləri "200" rəqəmləri ilə əvəz edilsin;

*1.2.* həmin Sərəncamla təsdiq edilmiş 2 nömrəli Əlavənin 2.4.1.1-2.4.1.4-cü yarımbəndlərində "185", "175", "170" və "165" rəqəmləri müvafiq olaraq "215", "210", "205" və "200" rəqəmləri ilə əvəz edilsin.

**2.** Bu Sərəncam 2019-cu il martın 1-dən tətbiq edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 9 mart 2019-cu il.**

## "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1464-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 272 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1464-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* üç ay müddətində:

*1.1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.2.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 272 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, N 5, maddə 401; 2012, N 11, maddə 1086; 2013, N 5, maddə 499; 2015, N 9, maddə 998, N 11, maddə 998; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 noyabr tarixli 330 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

*3.1.* 1.1-ci bəndə "Məcəlləsinin" sözündən sonra "18-ci maddəsində," sözləri əlavə edilsin;

*3.2.* aşağıdakı məzmunda 1.1-2-ci bənd əlavə edilsin:

"1.1-2. həmin Məcəllənin 18-ci maddəsində "orqan" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 7 mart 2019-cu il.**

## Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 8, maddə 612; 2011, N 12, maddə 1108; 2012, N 6, maddə 501; 2017, N 5, maddə 732, N 7, maddə 1298; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1253-VQD nömrəli Qanunu) 18-ci maddəsinin mətnində "qanunvericilikdə" sözü "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 fevral 2019-cu il.**

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 12 (I kitab), maddə 2328; 2018, N 5, maddə 897, N 8, maddə 1690; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 yanvar tarixli 470 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"nin 6.2-ci bəndində "466 000 000 (dörd yüz altmış altı milyon)" sözləri "566 000 000 (beş yüz altmış altı milyon)" sözləri ilə əvəz edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsinin icrası aşağıdakı maliyyə mənbələri hesabına təmin edilsin:

*2.1.* "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 dekabr tarixli 431 nömrəli Fərmanının 1.13.1.2.1-ci yarımbəndinə (Azərbaycan Respublikasında əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi üzrə tədbirlər) əsasən dövlət büdcəsindən Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fonduna ayrılan vəsaitin 80 milyon manatı hesabına;

*2.2.* Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.81.1-ci yarımbəndinə (Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi) əsasən müəyyən edilən vəsaitin 20 milyon manatı hesabına.

**3.** Bu Fərmanın 2.1-ci bəndinin icrasını Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, 2.2-ci bəndinin icrasını isə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu bir ay müddətində təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 7 mart 2019-cu il.**

## Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə" 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli və "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin yaradılması haqqında" 2018-ci il 25 may tarixli 95 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1364-VQD nömrəli Qanununun və "Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 362 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, N 10, maddə 1132; 2016, N 8, maddə 1384, N 10, maddə 1633; 2017, N 4, maddə 564, N 11, maddə 1997; Azərbaycan Respublikasının 2019-cu il 23 fevral tarixli 548 nömrəli Fərmanı) 1.1-ci bəndinə "bağlı" sözündən sonra "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı həmin Qanunla müəyyən edilmiş nəzarət orqanları tərəfindən həyata keçirilən" sözləri əlavə edilsin.

**2.** "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 may tarixli 95 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 5, maddə 963) 2-ci hissəsinə "fəaliyyəti əlaqələndirən" sözlərindən sonra ", habelə həmin sahədə siyasətin formalaşmasında iştirak edən" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 7 mart 2019-cu il.**

*Zeynal Nağdəliyev:*

# Şamaxıda və Ağsuda Prezidentə təqdim olunan məktubların 80 faizində yeni evlər istənilir



**Hər bir dövlət qulluqçusunun qarşısında vəzifə qoyulub ki, vətəndaşlar arasında olsunlar. Azərbaycan Prezidenti İlham Əliyevin bölgələrə səfərlərində, o cümlədən Şamaxı və Ağsuda zəlzələdən zərər çəkmiş insanların problemləri ilə maraqlanması bunun bariz nümunəsidir.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri martın 9-da jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin ərazi-təşkilat məsələləri üzrə köməkçisi Zeynal Nağdəliyev bildirib.

Prezident Administrasiyasının rəsmisi Şamaxı və Ağsuda əhali tərəfindən dövlətimizin başçısına təqdim olunan məktublarla bağlı da məlumat verib. Deyib ki, Şamaxıda və Ağsuda əhali ilə keçirilən görüşlərdə dövlətimizin başçısına təqdim olunan məktubların hamısı nəzarətə götürülüb. Bir dənə də olsun məktub və şifahi müraciət diqqətdən kənarda qalmayacaq. Həmin məktubların mütləq əksəriyyətində yeni evlər istənilir. “Ölkəmizdə həyata keçirilən sosial siyasətin nəticəsidir ki, müraciət edən vətəndaşlar dövlətimizin başçısından hazır ev istəyirlər. Dünyanın heç bir yerində belə təcrübə yoxdur, evlər sığortalanır, dövlət bu qayğıdan kənarda qalır. Amma Azərbaycan bu siyasətlə də öndədir. Çünki Prezidentimizin dediyi kimi, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır”, -deyə Z.Nağdəliyev bildirib.

Zeynal Nağdəliyev qeyd edib ki, digər məktublar isə iş problemi və sosial qayğı ilə bağlıdır. Onların hər biri ciddi nəzarətə götürülüb.

**AZƏRTAC**

# Novruz yarmarkalarında qiymətlər bazarlarla müqayisədə dəfələrlə ucuzdur

**Ölkənin bütün şəhərlərində və rayon mərkəzlərində Prezident İlham Əliyevin tapşırığı ilə Novruz bayramı yarmarkaları təşkil olunub. Qiymətlər bazarlarla müqayisədə dəfələrlə ucuzdur.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri martın 9-da jurnalistlərə açıqlamasında Azərbaycan Respublikasının Prezidentinin ərazi-təşkilat məsələləri üzrə köməkçisi Zeynal Nağdəliyev paytaxtın 3-cü mikrorayonu ərazisində təşkil olunmuş yarmarkada deyib.

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, yarmarkaların təşkil edilməsində məqsəd vətəndaşların ucuz və keyfiyyətli məhsullarla təmin olunmasıdır.

Zeynal Nağdəliyev bildirib ki, keçən həftənin şənbə və bazar günlərində təşkil olunan yarmarkalar ilə müqayisədə məhsulların həm keyfiyyəti, həm də çeşidi baxımından xeyli irəliləyiş var. Qiymətlər bazarlarla müqayisədə dəfələrlə ucuzdur. Yarmarkalarda alıcılara 42 rayondan gətirilən 53 adda məhsul təqdim edilir. Novruz yarmarkalarında məhsulun çeşidi daha da artırılmalı və keyfiyyəti diqqətdə saxlanılmalıdır. Təşkil edilən bu yarmarkalar əhalinin bayram əhval-ruhiyyəsinə müsbət təsirini göstərəcək. Bu, dövlətimizin başçısının xalqımızın rifahı üçün atdığı növbəti addımdır.

Prezidentin köməkçisi deyib ki, bu məsələlərə Azərbaycan Prezidenti



İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən çox ciddi nəzarət olunur.

**AZƏRTAC**

# Novruz yarmarkasında məhsullar müxtəlif çeşiddə olmaqla, bazar qiymətindən xeyli ucuzdur

**Martın 9-da paytaxtın Nizami rayonunun Naxçıvanski küçəsi, 74 ünvanında (8-ci kilometr yarmarkası) kənd təsərrüfatı məhsullarının növbəti Novruz yarmarkası təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, səhər saat 9:00-dan açılan yarmarkada respublikanın müxtəlif bölgələrindən gəlmiş fermerlər rayon sakinlərinə öz məhsullarını təklif ediblər.



Yarmarkanın fəaliyyəti ilə tanış olan Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov buradakı qiymətlərlə maraqlanıb. Deyib ki, paytaxt əhalisi üçün təşkil olunan kənd təsərrüfatı yarmarkası praktikasını gələcəkdə daha geniş tətbiq etməliyik: “Bunun üçün ehtiyatlar da mövcuddur. Hesab edirəm ki, bu praktikadan daha səmərəli istifadə etmək mümkündür. Qiymətlərlə tanış oldum, bazarla müqayisədə fərq var. Proses dərinləşdikcə hesab edirəm ki, daha yaxşı qiymətlərə nail olacağıq”.

Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri Aqil Quliyev bildirib ki, ölkə başçısının tapşırığı ilə Bakının 14 məntəqəsində kənd təsərrüfatı məhsullarının satış yarmarkası təşkil olunub. Yarmarkalarda müxtəlif rayonlardan fermerlər və qida istehsalçıları iştirak edirlər: “Burada məhsulların bazar qiymətlərindən daha ucuz olması təmin edilir. Yarmarkaya fermerlərin birbaşa çıxışı, eyni zamanda, bazara gəlmək istəyən fermerlərin nazirlik tərəfindən nəqliyyat vasitələri ilə təmin edilməsi, eləcə də hər hansı ödənişin tələb olunmaması məhsulların maya dəyərinin daha aşağı olmasına səbəb olur. Buna görə də, maya dəyəri aşağı olduğundan yarmarkadakı məhsullar bazar qiymətlərindən xeyli ucuzdur”.

Yarmarkada qiymətlərdən razılıq edən alıcılar onlara yaradılan şəraitə görə minnnətdarlıqlarını bildiriblər.

Müştərilərə pendir məhsulları təklif edən İmişli rayon sakini, fermer Füzuli Əmirəliyev bildirib ki, müxtəlif çeşiddə olan məhsullar ucuz olmaqla yanaşı, həm də keyfiyyətlidir. Belə ki, pendir məhsulllarının qiyməti 3-5 manat arasındadır. F.Əmirəliyev bu sahə ilə 25 ildir məşğul olduğunu və məhsulların istehsalının böyük zəhmət hesabına ərsəyə gəldiyini deyib.

Bal məhsulları satan Astara rayon sakini Bəhram İbrahimov isə arıçılığın ata-baba peşəsi olduğunu söyləyib. Onun sözlərinə görə, arıçılıq maraqlı olmaqla yanaşı, həm də gəlirli sahədir. Astaralı fermer qeyd edib ki, alıcılara təklif edilən cökə, çiçək və meşə balının qiyməti 20 manatdan 35 manatadəkdir.

Xatırladaq ki, Kənd Təsərrüfatı Nazirliyinin təşkil etdiyi yarmarka şənbə və bazar günləri, martın 16-dan 21-dək isə hər gün fəaliyyət göstərəcək.

**AZƏRTAC**



# Azərbaycan bocciaçıları bu ay Xorvatiyada keçiriləcək Açıq Regional Çempionatda iştirak edəcəklər

**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun 1 nömrəli Sağlamlıq imkanları məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzində bocciaçılarla görüşüb.**



Nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Prezident İlham Əliyevin xüsusi qayğısı nəticəsində ölkəmizdə paralimpiya hərəkatının gücləndiyi və böyük uğurlar qazandığını qeyd edən nazir bildirib ki, paralimpiya oyunları sırasına daxil olan boccia idman növü üzrə artıq ilk mühüm nailiyyət əldə edilib. Ötən ilin oktyabrında İtaliyada keçirilən beynəlxalq səviyyəli Açıq Regional Çempionatda iştirak edən boccia idman növü üzrə komandamız çempionatı bir qızıl, üç bürünc medalla başa vurub.

Nazir deyib ki, bocciaçılarımız Azərbaycan paralimpiyaçılarının müxtəlif idman növləri üzrə mötəbər beynəlxalq yarışlarda qazandıqları parlaq qələbələri davam etdirmək əzmi nümayiş etdirirlər. Hazırda ölkəmizin üç bocciaçısı - Bəhruz Mirzəyev, Zaur Veysəlov və Xəyal İslamov bu ay Xorvatiyada keçiriləcək beynəlxalq səviyyəli Açıq Regional Çempionata hazırlaşırlar. Nazir qarşıdakı yarışda onlara uğurlar arzulayıb.

Sonra Sahil Babayev mərkəzdə boccia idman növü ilə məşğul olanlara göstərilən xidmət və məşq şəraiti, Xorvatiyada keçiriləcək beynəlxalq səviyyəli Açıq Regional Çempionata hazırlıq prosesi ilə tanışlıq olub.

**AZƏRTAC**

# Nəsimi rayonunda növbəti Novruz yarmarkası

**Martın 9-da Nəsimi rayonunun 3-cü mikrorayon ərazisində S.C.Pişəvəri küçəsi 2A ünvanında Novruz yarmarkası açılıb.**



AZƏRTAC xəbər verir ki, yarmarkada respublikanın müxtəlif bölgələrindən fermerlər, ailə təsərrüfatları əhaliyə geniş çeşiddə kənd təsərrüfatı məhsullarını bazar qiymətlərindən ucuz təklif edirlər. Məhsulların keyfiyyətinə və qiymətlərinə müvafiq qurumlar tərəfindən nəzarət olunur. Qeyd edək ki, yarmarkada Qəbələ, Beyləqan və Cəlilabad rayonlarından gətirilən məhsullar satılır.

Dövlətimizin başçısının tapşırığına əsasən təşkil edilən bu yarmarkaların məqsədi fermerlərin, sahibkarların öz məhsullarını əlverişli şəraitdə sata bilməsi, əhalinin isə ucuz qiymətə məhsul almasıdır. Belə tədbirlər əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında, süni qiymət artımının qarşısının alınmasında və istehlakçıların seçim imkanlarının artırılmasında mühüm rol oynayır.



Xatırladaq ki, dövlətimizin başçısının tapşırığı ilə paytaxtın 14 ünvanında, ölkənin bütün şəhər və rayon mərkəzlərində martın 2-dən etibarən hər həftənin şənbə və bazar günləri, martın 16-dan 21-dək isə hər gün Novruz yarmarkaları keçirilir.

**AZƏRTAC**

# Tehranda Azərbaycan-İran əlaqələri müzakirə olunub

**Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov İran İslam Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Həsən Ruhani ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını İran Prezidenti Həsən Ruhaniyə çatdırıb.

Prezident Həsən Ruhani Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib və onun da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib.

Nazir Rəşt-Qəzvin dəmir yolunun açılışı münasibətilə İran tərəfini təbrik edib. Öz növbəsində, İran Prezidenti Azərbaycan tərəfinin açılışda yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunmasına görə təşəkkürünü bildirib.

Tərəflər arasında iki ölkə münasibətlərinin gündəliyində olan iqtisadi layihələrə dair fikir mübadiləsi aparılıb. Eyni zamanda, ölkələrimiz arasında mədəni, siyasi, iqtisadi əlaqələrin inkişaf etdirilməsi vurğulanıb.

İran Prezidenti Həsən Ruhani İran ilə Azərbaycan arasında mövcud olan əlaqələrin inkişafından məmnunluğunu ifadə edib. İranda Azərbaycan ilə əlaqələrin inkişafının hakimiyyətin bütün qolları tərəfindən dəstəkləndiyini bildirib. Prezident Ruhani Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh və diplomatik danışıqlar yolu ilə Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində həllini dəstəklədiklərini qeyd edib.

Nazir Elmar Məmmədyarov Azərbaycan Respublikasının Prezidentinin bu ilin 25-26 oktyabr tarixlərində ölkəmizdə keçiriləcək Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının zirvə görüşünə dəvət məktubunu İran Prezidentinə təqdim edib. Prezident Həsən Ruhani tədbirdə iştirakı məmnunluqla qəbul edib.

Ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlığı dəstəkləyən İran Prezidenti Azərbaycan-Rusiya-İran əməkdaşlığını müsbət dəyərləndirərək, dövlət başçılarının növbəti zirvə görüşünün keçirilməsinin əhəmiyyətini qeyd edib. Həmçinin Azərbaycan-İran-Türkiyə və Azərbaycan-İran-Türkiyə-Gürcüstan formatında əməkdaşlığı mühüm qiymətləndirərək, bu istiqamətdə əməkdaşlığın davam etdirilməsinin önəmi ifadə edilib.

**AZƏRTAC**

*Cavad Zərif:*

# İran Azərbaycanın təhlükəsizlik və inkişafını özünün təhlükəsizliyi və inkişafı hesab edir

**İran İslam Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə İran xarici işlər naziri Cavad Zərifin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**



AZƏRTAC xəbər verir ki, görüşdə tərəflər ikitərəfli münasibətlərin gündəliyində duran bir sıra məsələlər, eləcə də turizm və mədəniyyət sahələrində əlaqələrin inkişafı, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, o cümlədən UNESCO çərçivəsində əməkdaşlığın genişləndirilməsi kimi məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Nazirlər Azərbaycanın cari ildə Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının zirvə görüşünə ev sahibliyi edəcəyini nəzərə alaraq, zirvə görüşündən əvvəl keçiriləcək xarici işlər nazirlərinin görüşünü müzakirə ediblər.

Nazir Elmar Məmmədyarov bölgədə sülh və təhlükəsizliyin təmin olunmasının vacibliyini vurğulayıb, bu xüsusda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə həlli məsələsini qeyd edib və qarşı tərəfə danışıqlar prosesinin hazırkı vəziyyəti barədə məlumat verib. Bölgədə sülh, təhlükəsizlik, dayanıqlı inkişaf və rifaha nail olmaq üçün münaqişənin həllinin vacib olduğu vurğulanıb.

İran naziri Cavad Zərif Azərbaycanın təhlükəsizlik və inkişafını özünün təhlükəsizliyi və inkişafı bildiyini söyləyib. İran tərəfinin Azərbaycanla hərtərəfli münasibətlərin inkişafında maraqlı olduğunu vurğuladı. İkitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi üçün müzakirə obyekti olan layihələrin sürətləndirilməsinin vacib olduğunu qeyd edib.

İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Məhəmməd Baqirinin Azərbaycana səfəri zamanı səsləndirdiyi fikirlərin İranın rəsmi mövqeyi olduğu bildirilib. Nazir Cavad Zərif ölkəsinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipi əsasında həll edilməsinə tərəfdar olduğunu vurğulayıb.

**AZƏRTAC**

# Problemli kreditlərin həlli üzrə yeni elektron resurs hazırlanıb

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) problemli kreditlərin həlli üzrə kommunikasiyanı gücləndirmək məqsədilə yeni elektron resurs (http://iqtisadi-islahat.org/pk/) hazırlayıb.**

Mərkəzdən AZƏRTAC-a bildirilib ki, elektron resursun ilk bölməsində qanunvericilik bazası yer alıb. Hazırda həmin bölmədə Prezident İlham Əliyevin fiziki şəxslərin xarici valyutada olan kreditləri üzrə onların üzləşdiyi maliyyə itkisini qarşılamaq və dövlət dəstəyini təmin etmək məqsədilə imzaladığı Fərman yerləşdirilib.

İkinci bölmədə dövlət büdcəsinin hesabına xarici valyutada mövcud olan əsas kredit borcuna görə ödənişin hesablanması üzrə tərtib olunan kalkulyator yer alıb. Bu kalkulyator vasitəsilə həm 2015-ci il fevralın 21-nə, həm də 2015-ci il dekabrın 21-dək xarici valyutada mövcud olan əsas kredit borcunu daxil etməklə kompensasiya məbləğini hesablamaq mümkündür. Kalkulyatorla həm “scroll-bar”, həm də xanada əsas kredit borcunu göstərməklə kompensasiyanı hesablamaq mümkündür.

Yeni elektron resursun digər bölməsi Fərmanın vizual təqdimatı izahını təqdim edir. Bu bölmədə fiziki şəxslərin problemli kreditlərin həlli üzrə Fərmanın əsas məqamlarını vizual olaraq izah edən inoqrafika və videoçarxlar yerləşdirilib.

Sonuncu bölmə tez-tez ünvanlanan suallara aid edilib. Bu bölmədə Fərmanla bağlı ən aktual məsələlər, eləcə də problemlərə dair suallar cavablandırılıb.

**AZƏRTAC**

# Bakı Mühəndislik Universiteti BP ilə birlikdə startap ekosistemini inkişaf etdirir




**Azərbaycanda innovasiya ekosisteminin formalaşmasında, o cümlədən startapların inkişafında xüsusi rol oynayan Bakı Mühəndislik Universiteti (BMU) bu sahədə BP şirkəti ilə əməkdaşlığa başlayır. "Yeni fikir VI" startap müsabiqəsi BMU-nun təşkilatçılığı və BP-nin maliyyə dəstəyi ilə həyata keçirilir. Bu məqsədlə BMU-da geniş tərkibli görüş keçirilib. Hər iki tərəfin nümayəndələrinin iştirak etdiyi tədbirdə Təhsil Nazirliyi NRYTN Yüksək Texnologiyalar Parkı, ASAN İnnovasiyalar Mərkəzi, İNNOLAND İnkubasiya və İnnovasiya Mərkəzinin nümayəndələri də iştirak ediblər.**

Tədbir iştirakçılarını salamlayan universitetin rektoru, professor Havar Məmmədov ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı olan möhtərəm Prezidentimiz İlham Əliyevin bu sahəyə diqqətindən və ölkəmizdə yaradılan şəraitdən danışıb. Qeyd edib ki, BMU-da sənaye müəssisələri üçün mühəndislik və iqtisadiyyat ixtisasları üzrə müasir nəzəri bilikli, qabaqcıl müəssisələrdə təcrübə keçən və müsbət vətəndaş xüsusiyyətlərinə malik kadr hazırlığı həyata keçirilir və universitetin gələcəkdə sahibkarlıq universitetinə çevrilməsi yönündə mühüm işlər görülür. "Yeni Fikir VI" startap müsabiqəsi (YFM) də innovativ sahibkarlığın inkişafını dəstəkləyən layihədir.

BP-nin Əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxış edərək BP-nin Azərbaycanda təhsil sahəsində, innovativ texnosahibkarlıq konsepsiyalarının, layihələrin və startapların dəstəklənməsi istiqamətində gördüyü işlərdən danışıb.

Sonra müsabiqənin layihə rəhbəri BMU Texnoparkının müdiri dosent İsa Qasımov müsabiqə haqqında ətraflı məlumat verib. Qeyd edib ki, BP-nin maliyyə dəstəyi ilə keçiriləcək "Yeni Fikir VI" startap müsabiqəsi əvvəlki müsabiqələrdən fərqli olaraq, həm də ekosistemə yeni startapların daxil olmasını hədəfləyir. O, layihənin 7 ay müddətində bir neçə mərhələdə aparılacağını və startap müsabiqəsinə layihələrin qeydiyyatı 4 mart - 5 may 2019-cu il tarixlərində yenifikir.az veb-səhifəsi vasitəsilə həyata keçiriləcəyini diqqətə çatdırıb.

Sonda tədbir iştirakçıları universitetin texnoparkında fəaliyyət göstərən startapların fəaliyyəti, BP tərəfindən qurulmuş kimya mühəndisliyi və mexanika mühəndisliyi laboratoriyaları ilə tanış olublar. Qonaqlar, həmçinin tələbələrin dərs prosesində laboratoriyalarda apardığı təcrübələri də yaxından izləyiblər.

**M.MİRZƏ,**
**"Respublika".**

# Andına sadiq qalan general

**Hər yanda yazın ılıq nəfəsi duyulurdu. Qaranquşlar baharın müjdəsini gətirmişdi. Ağacların tumurcuqları təzəcə çırtlayırdı. Qar-buz ərimiş, yollarda gediş-gəliş çoxalmışdı. Əkinçilər tarlaya çıxmışdılar. Hər yandan torpaq ətri, torpaq qoxusu gəlirdi. Yazın gəlişi İsmayıl kişinin ailəsinin də qayğılarını artırmışdı. Bax, beləcə Novruz müjdəli günlərin birində Quliyevlər ailəsində bir oğul övladı dünyaya gəldi. 1939-cu il martın 11-də doğulan bu körpə ailəyə böyük sevinc gətirmişdi. 1941-ci ildə Hitler Almaniyasının Sovet İttifaqına hücumu digər ailələr kimi Quliyevlər ailəsinin də sevincli, nəşəli günlərini əlindən aldı. Müharibənin başladığı ilk günlərdə Gədəbəy rayonunun Kərimli kəndindən könüllü olaraq cəbhəyə yollanan İsmayıl Quliyev 1941-ci ildə Moskva uğrunda gedən döyüşlərdə həlak olmuş, ailə başsız qalmışdı. Onda hələlik həyatda ilk addımlarını atan gələcək generalın heç üç yaşı da yox idi...**

1960-cı ildə 9-cu sinfi bitirdikdən sonra gələcək taleyini qurmaq məqsədilə Bakıya gələn Rəhim Quliyev ilk növbədə axşam məktəbinin 10-cu sinfinə yazılır, həmçinin Bakı Sabunçu dəmir yol xətti sahəsində mexanik vəzifəsində əmək fəaliyyətinə başlayır. İşləyə-işləyə Rostov şəhərindəki Dəmiryol Nəqliyyatı İnstitutunun qiyabi şöbəsində təhsil alır. Ali təhsilini qurtaran il bu gənc mütəxəssisin fəaliyyət istiqaməti bir qədər dəyişir. Belə ki, Rəhim Quliyev 1965-ci ildə daxili işlər orqanlarında işləməyə başlayır. 1965-1966-cı illərdə Nəqliyyat Milisi İdarəsinin su nəqliyyatı şöbəsində növbətçi inspektor, 1966-1971-ci illərdə isə Respublika Daxili İşlər Nazirliyinin Bakı Təyyarə Limanında Nəqliyyat şöbə milisinin nəqliyyat milisi məntəqəsində inspektor vəzifələrində çalışan Rəhim Quliyev işinə peşəkarcasına yanaşır, kollektivin böyük etimadını, dərin hörmətini qazanır və bütün bu yaxşı keyfiyyətləri nəzərə alınaraq həmin şöbənin rəisi vəzifəsinə irəli çəkilir. 1975-1978-ci illərdə rəis işlədiyi müddətdə o, həm də özünü yaxşı rəhbər, təşkilatçı kimi də göstərə bilir, işinə rəğbəti artır və bu sahə üzrə ali təhsil almaq qərarına gəlir. Sənədlərini SSRİ Daxili İşlər Nazirliyinin 1 saylı akademiyasına verib buranı müvəffəqiyyətlə bitirir. Artıq onun gələcəyinə böyük inam var idi. Elə bu səbəbdən də 1980-ci ildə Nəqliyyat üzrə Daxili İşlər İdarəsinin rəis müavini vəzifəsi ona etibar edilir. O zaman daxili işlər naziri işləyən Cəfər Vəliyev yeni təyinat yerinə göndərərkən ona xitabən demişdi: "Mən və kollegiya üzvləri sizə inanırıq. Əminik ki, yeni vəzifənin öhdəsindən şərəflə gələcəksiniz". Bu, adi sözlər deyildi, ona olan yüksək etimadın göstəricisi idi və o, bu etimadı doğruldur. İşə başladığı az müddətdən sonra həmin idarənin rəisi vəzifəsinə irəli çəkilir və bu vəzifədə o, 10 il, 1990-cı ilə kimi çalışır.

Rəhim müəllimin bu sahəyə rəis kimi gəlişi, həmin qurumun işində böyük dönüş yaradır. Peşəkar polis əməkdaşı kimi idarədə kadrların düzgün yerləşdirilməsinə nail olur, cinayət hadisələri, xüsusilə də ağır cinayətlərin sayı azalır, onların açılma faizi isə yüksəlir.

Dağlıq Qarabağ ətrafında baş verən hadisələr, ermənilərin torpaq iddiaları, soydaşlarımızın dədə-baba yurdlarından didərgin salınması onu da bir vətən övladı kimi narahat edirdi. Odur ki, tərəddüd belə etmədən düşmənə qarşı mübarizəyə qoşulur. 1990-1992-ci illərdə Dağlıq Qarabağda gedən əməliyyatlarda, eləcə də Ermənistan silahlı qüvvələrinin hücumlarına məruz qalan Gədəbəy rayonunun müdafiəsində iştirak edir.

1990-cı ildə Rəhim Quliyev daxili işlər nazirinin müavini və kadr idarəsinin rəisi vəzifəsinə qədər yüksəlir və ona polis general-mayoru rütbəsi verilir. Ömrünün və karyerasının məhz bu dönəmində o, ciddi sınaqlarla üzləşir. Xalq Cəbhəsi hakimiyyətə gəldikdən, İsgəndər Həmidov nazir vəzifəsinə təyin olunduqdan sonra Daxili İşlər Nazirliyində mübahisələr, qalmaqallar baş alıb gedir, peşəkar, vicdanlı kadrlar işdən uzaqlaşdırılır, səriştəsiz işçilərlə əvəz olunurdu. Nəhayət, 1992-ci il sentyabr ayının 16-da heç bir əsas olmadan, bir hadisəyə görə Rəhim müəllim də vaxtından əvvəl təqaüdə göndərilir, İ.Həmidov ona qarşı cinayət işinin açılacağı ilə hədələyir, lakin çox keçmədən tarix ədalətli bir hakim kimi hər şeyi öz yerinə qoyur. Ölkənin xilasını yalnız Heydər Əliyevdə görən xalq tezliklə onun hakimiyyətə gəlməsinə nail olur, Xalq Cəbhəsi siyasi səhnədən silinir. Hadisə isə belə olmuşdu...

Səriştəsiz nazirin uğursuz kadr islahatları digər vicdanlı polis işçiləri kimi Rəhim müəllimi də çox narahat edirdi. 1992-ci ildə İ.Həmidov daxili işlər orqanlarında heç bir xidməti olmayan, ictimai asayişi qorumaq əvəzinə dəfələrlə pozan bir insanın Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri vəzifəsinə təyin olunması barədə əmr verir. Bu təyinat Naxçıvan camaatı tərəfindən qəbul olunmur. Naxçıvan Daxili İşlər Nazirliyinin əməkdaşları, rayon polis idarələrinin işçiləri də buna etiraz edir. Naxçıvan ictimaiyyətinin məsələ ilə bağlı rəyini dəstəkləyən Rəhim Quliyev vəziyyətdən çıxış yolunu həmin zaman Muxtar Respublikanın Ali Məclisinin sədri olan Azərbaycan xalqının xilaskarı Heydər Əliyevlə görüşməkdə görürdü. Halbuki İ.Həmidov birmənalı şəkildə bu görüşü ona qadağan etmişdi. Bununla belə, Rəhim müəllim baş verə biləcək təhlükənin qarşısını almaq məqsədilə Heydər Əliyevlə görüşə bilir. Bu əhəmiyyətli görüşün nəticəsi olaraq Xalq Cəbhəsi hakimiyyətinin vəzifəyə təyin etdiyi namizəd şəxsi heyətə təqdim olunmur və İ.Həmidovun qanunsuz əmri ləğv edilir. Bununla da Naxçıvanda baş verə biləcək böyük bir vətəndaş qarşıdurmasının qarşısı alınır.

Ulu öndər Heydər Əliyev hər zaman deyirdi: "...Dövlətimizin, xalqımızın, təhlükəsizliyini təmin etmək peşəsinə sahib olmaq hər bir vətəndaş üçün şərəfli vəzifədir. Çünki hüquq-mühafizə orqanları əməkdaşları cəmiyyətdə yüksək etimada, eyni zamanda yüksək səlahiyyətə malikdirlər. Gərək hər bir əməkdaş bunların müqabilində öz məsuliyyətini dərk edə bilsin və üzərinə düşən vəzifəni yerinə yetirə bilsin".

Rəhim Quliyev də bütün fəaliyyəti dövründə məhz bu prinsiplərə sadiq qalmış, öz karyerasında qazandığı uğurlarla, vəzifəsinə peşəkar və məsuliyyətli yanaşma ilə əslində həyatının məqsədinin vətənə xidmət olduğunu sübut etmişdi. Rəhim müəllim deyir: "Ölkəmizin ictimai asayişinin qorunması və ərazi bütövlüyü uğrunda mübarizədə Azərbaycan polisi həmişə ön cəbhədə olmuş, özünün 100 illik şanlı tarixi ərzində şərəfli yol keçərək dövlətçiliyimizin əsas dayaqlarından birinə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə hüquq-mühafizə sistemində aparılan geniş islahatlar nəticəsində Azərbaycan polisi güclü nizam-intizama, yüksək peşəkarlığa malik, müasir maddi-texniki avadanlıqlarla təchiz edilmiş, dövlətçiliyimizin qorunması işində böyük xidmətləri olan mühüm dövlət təsisatıdır. Dövlət başçısının müasir polis sisteminin inkişafı ilə bağlı bütün tapşırıqlarını layiqincə yerinə yetirən daxili işlər naziri general-polkovnik Ramil Usubov polis veteranlarının qayğısına qalır, onlara xüsusi diqqət yetirir. Dövlətimizin bu diqqət və qayğısını bir polis veteranı kimi mən də hər an hiss edirəm. Arxada böyük bir ömür qoyub gəlmişəm, həyatımın demək olar ki, çox



hissəsini bu sahəyə həsr etdiyim üçün bu gün də qürur duyuram".

Rəhim müəllim təkcə işi ilə deyil, şəxsi həyatı ilə də çoxlarına nümunədir. Uşaqkən atasını itirən, çətinliklərlə dolu bir ömür yaşayan, qabiliyyəti, bacarığı ilə pillə-pillə ucalan bu vətənpərvər ziyalı, peşəkar polis generalı eyni zamanda gözəl ailə başçısı, dörd övlad atasıdır. Şübhəsiz ki, onun vətən, dövlət, xalq sevgisi övladlarına da sirayət edib. Onların hər biri dövlət qulluğunda və polis orqanlarında çalışaraq vətənə, dövlətimizə xidmət edir, atalarının şərəfli yolunu uğurla davam etdirir.

Ömrün də yazı, yayı, payızı, qışı olur. İndi Rəhim müəllim sözün həqiqi mənasında özünün baharını yaşayır, özü də nə az, nə çox düz səksəninci baharını. Kim bilir qismətinə hələ necə-necə baharlar yazılıb?!. Həmişə olduğu kimi yenə də doğmalarının əhatəsində dünyaya gəlişini qeyd edəcək, yenə də xatirələr yada düşəcək, qos-qocaman bir ömrün qürur gətirən anları xatırlanacaq, bəzən yuxu kimi qısa görünən bu ömrü necə yaşadım, illər mənə, mən illərə nə verdim kimi bəşəri sualların cavabını arayacaq və bəlli olacaq ki, ömür hədər getməyib, çünki üzərinə düşən vəzifələri hər zaman vicdanla yerinə yetirməyə çalışıb, adi sıravi işçi olanda da, vəzifə kürsüsündə də, şəxsi həyatında da verdiyi sözə, içdiyi anda sadiq qalıb.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

# Qazax: təhsilə qayğı diqqət mərkəzindədir

Son illərdə milli təhsilin inkişaf etdirilməsi, bu sahədə maddi-texniki bazanın gücləndirilməsi, iri-miqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi dövlət başçısı İlham Əliyevin apardığı siyasətdə prioritet təşkil edir. Böyük şəhərlərlə yanaşı, respublikanın ən ucqar yaşayış məntəqələrində də köhnə, uyğunsuz binalar tarixə qovuşur. Əvəzində isə müasir standartlara cavab verən, təhsil ocaqları inşa olunaraq müəllim və şagirdlərin istifadəsinə verilir.

Danılmaz faktdır ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə fondun maliyyə dəstəyi hesabına ölkənin bütün bölgələrində qəzalı vəziyyətdə olan yüzlərlə məktəb binası tikilib bütün zəruri avadanlıqlarla təchiz olunaraq istifadəyə verilmişdir. Məhz bunun nəticəsidir ki, respublikada təhsil sahəsində ürəkaçan nailiyyətlər əldə olunur. Sözsüz ki, ziyalılar məkanı olan Qazax rayonu da bu diqqət və qayğıdan kənarda qalmamışdır.

Hələ ötən əsrin əvvəllərində Qazax Müəllimlər Seminariyasından Qazax mahalı ilə bərabər respublikanın bir çox bölgələrində, eləcə də qonşu Gürcüstan və Qərbi Azərbaycanda yaşayan soydaşlarımız da bəhrələnmişlər. Qeyd etmək lazımdır ki, bu gün Qazax ziyalıları ölkəmizdə və respublika hüdudlarından kənarda ad-san qazanmışlar. Hazırda Qazaxda elmə, təhsilə yüksək həssaslıqla yanaşılır. Qazax rayonunda son illərdə bütün sahələrdə olan sürətli inkişafı, tərəqqini görməmək mümkün deyil. Rayonda təhsilin hazırkı durumu ilə bağlı Qazax Rayon Təhsil Şöbəsinin müdiri Nizaməddin Babanlı ilə həmsöhbət olduq. Həmsöhbətim qeyd etdi ki, son üç ildə rayonda təhsil sahəsində bir çox layihələr həyata keçirilmişdir. Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşovun imzaladığı müvafiq sərəncamla işçi qrup yaradılmışdır. Bu işçi qrup əsasən məktəblərdə şagirdlərin dərsə davamiyyətinə və təhsilin keyfiyyətinə ciddi nəzarət edir.



Qazaxda 33 tam orta, o cümlədən 1 məktəb-lisey, 6 ümumi orta, 6 ibtidai məktəb, 2 məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Təhsil ocaqlarında 12882, o cümlədən 1048 nəfər məktəbə hazırlıq qrupunda təhsilə cəlb edilmişdir. Şagirdlərin təlim-tərbiyəsi ilə 1685 nəfər müəllim məşğul olur.

Ötən təhsil ilində təhsilini başa vuran 676 nəfər məzundan 509 nəfər ali məktəbə qəbul imtahanlarında iştirak etmiş, onlardan 274 nəfər respublikanın nüfuzlu ali təhsil ocaqlarına qəbul olmuşlar. Sevindirici haldır ki, tələbə adını qazananlardan 49 nəfər 500-dən, 19 nəfər isə 600-dən yuxarı bal toplamışdı. Əvvəlki illərin məzunlarından 55 nəfər müvəffəqiyyətlə ali təhsil ocaqlarına qəbul olmuşlar. Bununla yanaşı 77 nəfər məzun orta ixtisas təhsili müəssisələrinə qəbul olmuşlar. Bir sözlə, əvvəlki illərin məzunları ilə birlikdə qəbul olma faizi 70,51 faiz olmuşdur.

Qazaxlı şagirdlər fənn olimpiadalarında da uğurlu nəticələr əldə etmişlər. 2018-ci ildə olimpiadaların rayon turunda 374 şagird iştirak etmiş, zona mərhələsinə 49 şagird vəsiqə qazanmışdır. Mart ayında Gəncə şəhərində keçirilən olimpiadada 4 nəfər məktəbli respublika mərhələsinə çıxmışdır. Aprel ayında Bakı şəhərində keçirilən olimpiadada Azərbaycan dili və ədəbiyyatı fənni üzrə bir nəfər şagird - Bala Çaylı kənd tam orta məktəbinin 11-ci sinif şagirdi Quluyeva Günay Sabir qızı - birinci yerə layiq görülərək qızıl medal almış, respublika üzrə IX, X, XI sinif şagirdləri arasında "Birincilərin birincisi" nominasiyasının qalibi olmuşdur. Bundan başqa, ötən il VI, VII sinif şagirdləri arasında fizika, riyaziyyat, kimya, biologiya və informatika fənləri üzrə fənn müsabiqələri keçirilmişdir. Müsabiqənin rayon mərhələsində 126 nəfər şagirddən və 4 nəfəri qalib gələrək respublika müsabiqəsində iştirak etmək hüququ qazanmışdır. Qaliblər Bakı şəhərində keçirilən respublika mərhələsində iştirak etmişlər. Məktəb-liseyin VII sinif şagirdi Dadaşov Məhəmməd Vüqar oğlu informatika fənni üzrə respublika fənn müsabiqəsində birinci yeri tutmuşdur.



Rayonda yeniyetmələrdə hərbi-vətənpərvərlik hissinin aşılanması məqsədi ilə mütəmadi olaraq müxtəlif maraqlı tədbirlər keçirilir. Ümumtəhsil məktəblərinin X, XI sinif şagirdlərinin sıra hazırlığı, faktiki hazırlıq, silahlar və atəş hazırlığı üzrə bilik və təcrübələrini artırmaq məqsədi ilə Qazax rayonunda yerləşən Müdafiə Nazirliyinin "N" saylı hərbi hissə və Daxili İşlər Nazirliyi daxili qoşunlarının Qazax rayon bölməsi ilə sıx əməkdaşlıq edilmiş, vaxtaşırı olaraq şagirdlərin göstərilən bölmələrə səfəri təşkil olunmuşdur. Qeyd etmək lazımdır ki, rayonda son illərdə təhsil müəssisələrinin əsaslı və cari təmiri geniş vüsət almışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə dövlət büdcəsindən ayrılan vəsait hesabına 2018-ci ildə Qazax şəhər Səməd Vurğun adına 2 №-li tam orta məktəbi əsaslı təmir olunmuşdur. Rayonun Ağköynək, Xanlıqlar və Daş Salahlı 1 saylı tam orta məktəblərində cari təmir işləri həyata keçirilmiş, müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Rayonun bütün təhsil müəssisələri İKT sistemi ilə təmin olunmuşdur. Görünən odur ki, Qazaxda bütün sahələrlə yanaşı təhsil sistemi də özünün əsl inkişaf dövrünü yaşayır.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# UNEC-in gənc müəllimləri and içdi





Ölkə başçısının təsdiqlədiyi Dövlət proqramlarında gənclərin öz bilik və bacarıqlarını, təbii potensialını effektli reallaşdırması, cəmiyyətdə layiqli yer tutması prioritet istiqamətlərdən biri kimi müəyyən olunur. Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) bu istiqamətdə dövlət siyasətinə dəstək məqsədilə uğurlu layihələr həyata keçirilir, gənclərin işə qəbulu ilə bağlı məqsədyönlü addımlar atılır.

UNEC-də işə qəbul edilən gənc müəllimlərin ənənəvi andiçmə mərasimi keçirilib.

Tədbirdə UNEC-in rektoru, professor Ədalət Muradov, AMEA-nın akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasov, Azərbaycan Təhsil Şurasının sədri, professor Hikmət Əlizadə və universitetin qocaman professorları da iştirak ediblər.

Rektor Ədalət Muradov gənc müəllimlərin innovativ və kreativlik baxımından bir addım öndə olduqlarına diqqət çəkərək, onları universitetin hədəflərini təmin edə biləcək aparıcı qüvvəsi adlandırıb. Universitetlərin əsas missiyasının müasir bilikli insan kapitalı yetişdirmək və cəmiyyətə xidmət etmək olduğunu vurğulayan rektor, UNEC-də təhsilin keyfiyyətini artırmaqla, elmi tədqiqatların həcmini dərinləşdirməklə və müasir müəllim-tələbə mühiti formalaşdırmaqla dünya universiteti meyarlarına uyğun ali təhsil müəssisəsi qurmağı hədəflədiyini bildirib.

Gənc müəllimlərin andiçmə mərasiminin ikinci dəfə keçirildiyini vurğulayan Ə.Muradov son 5 ildə UNEC-də 450-dən çox gəncin işə qəbul olunduğunu qeyd edib. Rektor UNEC-in Gənc Müəllimlər Şurasının fəaliyyətdən və "Gənc Professorlar" layihəsindən də söz açıb. Sonda gənc müəllimlərə fəaliyyətlərində uğurlar arzulayan Ə.Muradov, onlara qocaman professorların təcrübələrindən yararlanmağı tövsiyə edib.

UNEC-i ölkənin elitar universiteti adlandıran akademik Vaqif Abbasov, gənclərə müəllimlik missiyasının əhəmiyyətindən danışıb. Bütün dövrlərdə müəllimə yüksək dəyər verildiyini qeyd edən akademik, müəllimlik nüfuzunun yüksəlməsinə təsir edən amilləri açıqlayıb. "Təhsil, elm və texnologiya olan yerdə həyat var" deyə bildirən alim, ölkənin inkişafında müəllim əməyinin böyük rol oynadığını bildirərək, gənc müəllimlərə tövsiyələrini verib.

Azərbaycan Təhsil Şurasının sədri, professor Hikmət Əlizadə son illər UNEC-də tətbiq olunan yenilikləri qürurla izlədiyini bildirərək, ölkədə ilk dəfə olaraq bu ali təhsil müəssisəsində müəllimlərin işə başlayarkən andiçməsini yüksək qiymətləndirib. UNEC-də iqtisadyönümlü ixtisaslar üzrə müəllim hazırlamaq üçün yüksək elmi potensialın olduğunu qeyd edən professor, gənc müəllimləri savadlı və Azərbaycanı layiqincə təmsil etməyi bacaran tələbələr yetişdirməyə çağırıb.

"Azərbaycan dili" kafedrasının məsləhətçi-professoru Maarifə Hacıyeva gənclərə göstərilən dövlət dəstəyindən danışıb. Ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə müəllimə hörmət və ehtiramla yanaşdığını, onların maddi rifah halının qayğısına qaldığını bildirib. Hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Mərasimdə akademik azadlıq, akademik etika, layiqlilik, şəffaflıq, mükəmməllik, keyfiyyətlilik, iştirakçılıq, fərqliliklərə hörmət, cəmiyyətin mənafeyini düşünmək, ekologiyaya həssaslıq kimi yüksək mənəvi keyfiyyətləri özündə ehtiva edən "UNEC-in dəyərlər"i səsləndirilib.

Sonra gənc müəllimlər Azərbaycan Respublikasının Konstitusiyasına əl basaraq, təntənəli surətdə and içib, andiçmənin yazılı mətnini imzalayıblar. ■

# Fevral ayında elektrik enerjisi istehsalı artıb

"Azərenerji" ASC arxada qalan fevral ayı ərzində 1.945 milyard kvt/s elektrik enerjisi istehsal edib, qurumun İctimaiyyətlə əlaqələr və mətbuat mərkəzindən verilən məlumatda bildirilir. Bu isə ötən ilin fevral ayı ilə müqayisədə 24.2 milyon kvt/s çoxdur. Qeyd edək ki, ötən ilin fevral ayında 1.921 milyard kvt/s elektrik enerjisi istehsal edilmişdi.

Bu ilin fevral ayında istehsal edilən 1.945 milyard kvt/s elektrik enerjisindən 159.34 milyon kvt/s qonşu ölkələrə ixrac olunub.

**"Respublika".**

# Energetiklər sistem əhəmiyyətli yüksək gərginlik xətlərini yenidən qururlar

"Azərenerji" ASC "Reabilitasiya Planı"na uyğun olaraq, istilik, su və kiçik elektrik stansiyaları, yarımstansiyalar, o cümlədən enerjinin idarə edilməsi üçün dispetçer idarəetmə mərkəzi ilə yanaşı, sistem əhəmiyyətli yüksəkgərginlikli ötürmə xətlərində kompleks yenidənqurma və bərpa işlərini həyata keçirir. Bu istiqamətdə görülən işlərin bir hissəsi artıq başa çatıb, digər hissəsi isə davam etdirilməkdədir.

Qeyd olunmalıdır ki, yüksəkgərginlikli ötürmə xətlərində tikinti və yenidənqurma işlərinin aparılması enerji sisteminin dayanıqlılığı, etibarlılığı və fasiləsizliyi üçün başlıca şərtlərdən biri olmaqla yanaşı, texniki itkilərin aradan qaldırılmasında da xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, elektrik enerjisinin idxal və ixrac əməliyyatlarında əsas yük həm də ötürmə xətlərinin üzərinə düşür. Digər tərəfdən isə yüksəkgərginlikli ötürmə xətlərinin 69 faizi istismar müddətini keçdiyindən onların yenilənməsi təhlükəsizlik baxımından olduqca vacibdir. Bu səbəbdən də ötən ilin sentyabr ayında aparılan kadr islahatlarından sonra başlanan sürətli və növbəli iş rejimi nəticəsində yüksəkgərginlikli 330 kV-luq 3-cü İmişli, 220 kV-luq ikidövrəli 1-ci və 2-ci Zabrat, 110 kV-luq 2-ci Göyçay, 1-ci və 2-ci Kimyaçılar, 1-ci, 2-ci, 3-cü, 4-cü "Səkkizinci kilometr" və 1-ci "Əhmədli" hava xətlərində aparılan tikinti-yenidənqurma işləri yekunlaşıb.

"Cənub" Elektrik Stansiyası ilə "Xırdalan" yarımstansiyası arasında 220 kV-luq ikidövrəli hava xəttinin tikintisi başa çatmaq üzrədir.

Eyni zamanda, 220 kV-luq 3-cü, 6-cı Masallı, 110 kV-luq 3-cü "Sabirabad", 1-ci, 2-ci Lənkəran, 3-cü Suraxanı, 2-ci Maştağa, 3-cü Kürdəmir, 3-cü Yevlax, Yalama hava xətlərində və digər istiqamətlərdə də tikinti-quraşdırma işləri yekunlaşmaq mərhələsindədir. Paralel olaraq Azərbaycanla-Gürcüstan arasında çəkilən beynəlxalq miqyaslı 330 kV-luq Ağstafa-Qardabani hava xəttinin ikidövrəli variantda yenidən qurulması layihəsi üzrə işlər sürətlə davam etdirilir.

**Səfər MAHMUDZADƏ,**
**"Respublika".**

# GƏNCƏ: İNNOVATİV İNKİŞAF VƏ TƏRƏQQİ YENİ ÜFÜQLƏRƏ YOL AÇIB

**Azərbaycan Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2019-cu ildə qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən irəli gələn vəzifələrlə bağlı, Gəncə Şəhəri İcra Hakimiyytində" Gəncə şəhərinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları və 2019-cu ildə qarşıda duran vəzifələrə həsr olunmuş geniş hesabat yığıncağı keçirilmişdir. Yığıncaqda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Azərbaycan Respublikasının Prezident Administrasiyasının məsul işçisi Vəfadar Bağırov, Milli Məclisin deputatları Musa Quliyev, Naqif Həmzəyev, Pərvin Kərimzadə, Xanlar Fətiyev, icra hakimiyyətinin nümayəndələri, bələdiyyə sədrləri və üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, təhsil, səhiyyə, mədəniyyət işçiləri, xidmət rəhbərləri, şəhər ziyalıları və geniş ictimaiyyət nümayəndələri iştirak edirdilər.**





İlk öncə, dövlət rəsmiləri şəhərin mərkəzində möhtəşəm Heydər Əliyev meydanında ulu öndərin əzəmətli abidəsi önünə gül dəstələri qoyaraq, böyük ehtiramla yad etdilər. Sonra, şəhər icra hakimiyyətinin inzibati binasının iclas zalında yığıncaq öz işinə başladı. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov iştirakçıları salamlayaraq, qeyd etdi ki, tarixə qovuşmuş 2018-ci il qarşıda duran sosial və iqtisadi vəzifələrin icra edilməsi, nəzərdə tutulmuş proqramların reallaşması, ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsi, beynəlxalq nüfuzunun artması baxımından Azərbaycan üçün uğurlu dövr olmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyevin ulu öndər Heydər Əliyev dühasından qaynaqlanan, elmi əsaslara və liberal iqtisadiyyat prinsiplərinə söykənən insan amilini əsas götürən çevik siyasəti nəticəsində ölkəmiz keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuş, mürəkkəb beynəlxalq iqtisadi mühitdə baş verən böhrana rəğmən iqtisadi artımın davamlılığı təmin edilmişdir. Bəli, bu gün ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinin nəticəsidir ki, ölkə həyatının bütün sahələrində böyük nailiyyətlər əldə olunur, vətənimizin iqtisadi qüdrəti daha da artır. Ölkə başçısının məqsədyönlü və ardıcıl siyasəti nəticəsində Gəncənin də sosial-iqtisadi həyatının bütün sahələrində inkişaf müşahidə olunur. Bu inkişaf dinamikası 2018-ci ildə də qorunub-saxlanılıb, bir sıra yüksək göstəricilər əldə olunub.

Cari ildə şəhərdə istehsal edilmiş ümumi məhsul buraxılışı özündən əvvəlki illə müqayisədə 3,2 faiz artıb. Ümumi Daxili Məhsulun 71,5 faizi qeyri-dövlət bölməsində istehsal edilib.

2018-ci ildə şəhər iqtisadiyyatında çalışan işçilərin orta aylıq əməkhaqqı 376 manat təşkil edib ki, bu da 2017-ci illə müqayisədə 9,9 faiz çoxdur.

Hesabat dövründə Gəncə Şəhər Prokurorluğunun və Gəncə Hərbi Prokurorluğun müasir tələblərə cavab verən yeni inzibati binaları istifadəyə verilib. Gəncə Dövlət Dram Teatrının yeni 500 yerlik binasının və İdman Sarayının inşası aparılır. Bununla yanaşı, Gəncə-Bakı avtomobil yolunun sağ tərəfində, 2,5 hektar ərazidə 2 mərtəbəli Baş Dövlət Yol Polisi İdarəsinin Gəncə Regional Qeydiyyat-İmtahan və Texniki Baxış şöbəsinin inzibati binasının tikintisi davam etdirilir.

Gəncənin ayrı-ayrı ünvanlarında yerləşən 182 çoxmənzilli binanın dam örtüyü təmir edilib, çoxmərtəbəli binalarda 168 lift əsaslı və cari təmir olunaraq işlək vəziyyətə gətirilib. Hesabat dövründə Gəncənin müxtəlif küçə və prospektlərində, o cümlədən Hacıkənd qəsəbəsində 243 ədəd işıqlandırma dayağı yenisi ilə əvəz edilib, 52 ədəd elektrik şkafı, 19 min 165 ədəd işıqlandırıcı quraşdırılıb.

Şəhərin Nizami Gəncəvi prospekti, F.Əmirov, Bağmanlar, Ş.Bahəddin, Əttarlar, Təbriz, Gəncəvi, Firdovsi, Q.Qarayev, Azərbaycan Bayrağı, İ.Cəfərov, S.Xasayev və digər küçələrində yollar təmir olunub, ümumilikdə 28 km uzunluğunda avtomobil yolu, 50 min kv.metrdən çox səki asfaltlanıb.

Hesabat dövrü ərzində Rayon Məşğulluq Mərkəzlərinə işaxtaran qismində 3 min 944 nəfər vətəndaş müraciət edib. Ötən illər nəzərə alınmaqla işaxtaran vətəndaş kimi qeydiyyatda olanlardan 2 min 655 nəfəri işlə təmin olunub. 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamının icrası ilə əlaqədar rayon Məşğulluq Mərkəzləri tərəfindən müxtəlif peşələr üzrə 199 nəfər özünüməşğulluq təlimlərinə cəlb edilib.

Əhalinin su, qaz və elektrik enerjisi ilə təminatı sahəsində mühüm işlər görülüb. Gəncədə icra olunan və şəhərin su-kanalizasiya xətlərinin tam yenilənməsini hədəfləyən layihə davam etdirilir. Bunlarla yanaşı, təhsil, səhiyyə, mədəniyyət və idman sahələrinə xüsusi diqqət yetirilir.

1076 şagird yerlik 7 nömrəli tam orta məktəbin binasında əsaslı təmir işləri davam etdirilir. Cari ildə 18, 28 və 34 nömrəli tam orta məktəblərin əsaslı təmiri, 7 və 32 nömrəli Körpələr evi-uşaq bağçalarının tikintisi nəzərdə tutulur.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində "Şah Abbas" və "Uğurlu xan" karvansarayının əsaslı təmir və bərpası istiqamətində işlər başa çatdırılıb.

Gənclərlə iş və idman sahəsində əldə olunan nailiyyətlərdən danışan şəhər rəhbəri bildirdi ki, 2018-ci ildə Gəncədə müxtəlif mövzularda 165-ə yaxın tədbir və layihə həyata keçirilib ki, bu tədbirlərdə də 22 mindən artıq gənc və yeniyetmə iştirak edib. Gəncə idmançıları hesabat dövrü ərzində 20-si qızıl, 5-i gümüş, 22-si isə bürünc olmaqla ümumilikdə 47 medal qazanıblar.

Ümumiyyətlə, 2018-ci il ərzində şəhərdə baş verən mühüm iqtisadi dəyişikliklər, dinamik sosial-iqtisadi inkişaf, əldə olunan uğurlar şəhər əhalisinin maddi-rifah halının yaxşılaşdırılmasına, problemlərin aradan qaldırılmasına öz müsbət təsirini göstərib.

Çıxışının sonunda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov xüsusi olaraq vurğuladı ki, hər bir işin mayasında insan amili ən vacib amildir. Bu, Gəncə şəhəri üçün də xarakterikdir. Dövlət başçısı cənab İlham Əliyevin "bizim ən müqəddəs vəzifəmiz insanlara xidmət etmək, onların qayğıları ilə maraqlanmaq və həllinə nail olmaqdır" fikri birmənalı olaraq Gəncə Şəhər İcra Hakimiyyətinin fəaliyyət proqramıdır. Gəncənin inkişafı naminə göstərdiyi bu yüksək qayğıya görə qədirbilən gəncəlilər praqmatik dövlət başçısı, ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirərək, tam əmin edirlər ki, bundan sonra da onun ətrafında sıx birləşərək, Gəncədə davamlı iqtisadi inkişafa nail olmaq, qarşıya qoyulmuş tapşırıq, tövsiyə və vəzifələrin həlli üçün bütün imkanları səfərbər edərək, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji xətti uğurla və vaxtında həyata keçirəcəklər.

Hesabat yığıncağında Gəncə Şəhər Nizami Rayon İcra Hakimiyyətinin başçısı Nizami Hacıyev, Kəpəz Rayon İcra Hakimiyyətinin başçısı Eldəniz Xudiyev, Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşfiq Cəfərov və başqaları çıxış edərək, ötən il ərzində görülən işlərdən, reallaşdırılan layihələrdən və əldə olunan uğurlardan söz açdılar.

Məruzə ətrafında, Prezident Administrasiyasının Ərazi-Təşkilat Məsələləri Şöbəsinin sektor müdiri Vəfadar Bağırov yekun nitq ilə çıxış edərək, Azərbaycanın sosial-iqtisadi inkişafından, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılması istiqamətində atılan addımlardan, ölkə rəhbərinin imzaladığı sərəncam və fərmanlardan, qəbul olunan Dövlət proqramlarından söz açaraq, bildirdi ki, bu gün Azərbaycanın bir çox bölgələrində, o cümlədən Gəncədə, Sumqayıtda, Mingəçevirdə sənaye zonaları yaradılır. Sənaye zonaların yaradılması həm ölkə iqtisadiyyatının inkişafına, həm də əhalinin məşğulluğunun təmin edilməsinə yönəlib. Ölkənin 38 şəhər və rayonunda içməli su problemi həll edilib, əlavə 12 şəhər və rayonda bu istiqamətdə iş aparılır.

Gəncədə aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərini müsbət qiymətləndirən Vəfadar Bağırov şəhər ictimaiyyətinə müraciət edərək, bu işlərin davamlı olması üçün hər bir şəhər sakininin dəstəyinə ehtiyac duyulduğunu bildirdi.

Qərar layihəsi oxundu, iştirakçılar adından ölkə Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olundu.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Suraxanı rayonunda ötən ilə yekun vurulmuşdur






**"Suraxanı rayonunda 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları və 2019-cu ildə qarşıda duran vəzifələr haqqında" rayon icra hakimiyyəti başçısının hesabat yığıncağı keçirilmişdir. Rayon icra hakimiyyəti başçısı yanında şuranın üzvləri, rayondan Milli Məclisə seçilmiş deputatlar, rayon ziyalıları və ictimaiyyət nümayəndələri əvvəlcə Neftçilər parkında həmişəyaşıl ağaclar əkmiş, sonra isə Heydər Əliyev parkında ucalan abidəsini ziyarət etmişlər.**

Hesabat yığıncağının iştirakçıları ötən ilin iqtisadi göstəricilərini əks etdirən stendlərə baxmış, rayonun sənaye müəssisələrinin istehsal etdiyi məhsullarla tanış olmuşlar.

Rayonda aparılmış abadlıq-quruculuq işləri haqqında film nümayiş olunduqdan sonra hesabat məruzəsi ilə çıxış edən rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov bildirmişdir ki, hesabat dövrü ərzində Suraxanı rayonunun hərtərəfli sosial-iqtisadi inkişafı davam etdirilmiş, sənaye məhsulunun istehsalı 450,4 milyon manat, tikinti-quraşdırma işləri 122,5 milyon manat, nəqliyyat xidmətləri 11,0 milyon manat, pərakəndə ticarət dövriyyəsi 1175,2 milyon manat olmuş, orta aylıq əməkhaqqı 578 manat təşkil etmiş, əhaliyə 240,6 milyon manat məbləğində ödənişli xidmətlər göstərilmiş, rayona 118,7 milyon manat investisiya cəlb edilmiş, 3997 yeni iş yeri açılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2018-ci ildə iki dəfə Suraxanı rayonuna gəlmiş, may ayının 22-də Qaraçuxur qəsəbəsində "ATEF Şirkətlər Qrupu" MMC tərəfindən inşa edilmiş yüksəkgərginlikli avadanlıqlar zavodunun, dekabr ayının 27-də isə Hövsan qəsəbəsində Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzinin açılışında iştirak etmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin ikinci layihəsi olan Hövsan Yaşayış Kompleksində binaların tikintisi işləri davam etdirilmişdir.

"Bakı şəhəri və onun qəsəbələrində təhsil müəssisələrinin təmiri və tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2018-ci il tarixli Sərəncamına uyğun olaraq Qaraçuxur qəsəbəsində Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziyanın tədris korpusunda və yataqxana binasında əsaslı təmir işləri aparılmış, ərazisi abadlaşdırılmışdır.

Qaraçuxur qəsəbəsi, Yeni Günəşli "D" yaşayış sahəsində yerləşən 2 nömrəli Uşaq evinin yeməkxana kompleksində yenidənqurma işləri aparılmış, Hövsan qəsəbəsinin kənd hissəsində 23 nömrəli Şəhər Poliklinikasının Hövsan kənd filialı əsaslı təmir olunmuş, müasir tibbi avadanlıq və inventarlarla təchiz edilmiş, Yeni Günəşli "D" yaşayış sahəsində tikilmiş şahmat məktəbinin açılışı olmuşdur.

2018-ci ildə yaşıllaşdırma və ətraf mühitin sağlamlaşdırılması tədbirləri davam etdirilmiş, 13 ümumrayon iməciliyində 6713 ədəd ağac əkilmiş, rayonun neft əməliyyat şirkətləri tərəfindən ümumi sahəsi 7,9 hektar olan müxtəlif ölçülü 96 gölməçə qurudulmuş və müxtəlif növ tullantılardan təmizlənmiş, lay suları və neftlə çirklənmiş 28 hektar torpaq sahəsi təmizlənərək texniki rekultivasiya olunmuş, 76 ədəd quyunun işçi meydançası və ətrafı neft tullantılarından təmizlənmişdir. Yeni Suraxanı qəsəbəsində yerləşən keçmiş Yod-brom zavodunun ərazisinə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 850,0 min kubmetr torpaq daşınaraq, rekultivasiya olunmuş və sözügedən ərazidə 85 min ağac əkilmişdir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü və Bakı şəhəri üzrə rayon icra hakimiyyətlərinin dəstəyi ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsinə uyğun olaraq, Hövsan qəsəbəsi, Elman Qasımov küçəsində 540 ailənin - 1942 nəfər sakinin yaşadığı məhəllə abadlaşdırılaraq 27 dekabr 2018-ci il tarixdə sakinlərin istifadəsinə verilmişdir.

Qaraçuxur qəsəbəsində Neftçilər parkının əsaslı təmiri işləri davam etdirilmiş, Milli Qəhrəman Cavanşir Rəhimovun büstünün ətraf ərazisi yenidən qurulmuş, 14 min kvadratmetr yaşıllıq salınmış, mövcud ağaclar budanmış, 1000 ədəd yeni ağac əkilmiş, su şəbəkəsi çəkilmişdir. ümumi sahəsi 470 kvadratmetr olan uşaq, 150 kvadratmetr - idman, 400 kvadratmetr - mini-futbol meydançaları salınmış, ahılların istirahəti üçün "Veteranlar guşəsi" tikilmiş, 113 ədəd işıq dirəyi, yeni Komplekt Transformator Məntəqəsi, 2 ədəd söhbətgah, 65 ədəd oturacaq, gül dibçəkləri quraşdırılmış, ümumi uzunluğu 800 metr olan "Velotrek" təşkil edilmişdir.

Yararsız və ya qəzalı vəziyyətdə olan binalarda yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, şəhərin ümumi görünüşünə xələl gətirən yaşayış binalarının sökülərək yeni yaşayış binalarının inşa edilməsi Proqramına uyğun "Etibarlı" MTK tərəfindən Qaraçuxur qəsəbəsi, Əhməd Mehbalıyev küçəsi 34 və 36 ünvanda istismara yararsız ikimərtəbəli 16 mənzilli yaşayış binalarının yerində inşa edilən 12 və 14 mərtəbəli, ikigirişli yaşayış binasında tikinti işləri başa çatdırılmışdır.

2018-ci il ərzində rayon icra hakimiyyətinin başçısı tərəfindən 1420 nəfərin iştirakı ilə 44 səyyar görüş-qəbul keçirilmiş, 714 nəfər vətəndaş qəbul edilmişdir. Rayon Məşğulluq Mərkəzinə müraciət etmiş 1764 nəfərdən 627-si iş ilə təmin edilmiş, 76 nəfər peşə hazırlıq kurslarına göndərilmiş, 97 nəfər özünüməşğulluq proqramı üzrə təlimləri başa vuraraq biznesin qiymətləndirilməsi mərhələsindən keçmiş, 53 nəfər isə aktivlərlə təmin olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən 2018-ci il ərzində 1215 nəfər işsiz vətəndaş yeni açılmış haqqı ödənilən ictimai faydalı işlərə cəlb edilmişdir. Onların iştirakı ilə rayonda geniş abadlıq-təmizlik işləri aparılmışdır.

2019-cu ildə "DOST İŞ Mərkəzi" MMC tərəfindən təqdim olunacaq 905 nəfər işsiz şəxsin müvafiq istiqamətlər üzrə haqqı ödənilən ictimai işlərə cəlb olunması nəzərdə tutulmuş və həmin işlərə artıq başlanılmışdır.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən 2018-ci ilin avqust və noyabr aylarında rayonda məskunlaşmış 62 məcburi köçkün ailəsi onlar üçün tikilmiş binalara köçürülmüşdür.

Yığıncaqda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçisi Tağı Tağıyev, Milli Məclisin deputatları Ağacan Abiyev, Sevinc Fətəliyeva, Fərəc Quliyev, rayonun müəssisə və xidmət sahələrinin rəhbərləri, rayon sakinləri iştirak etmişlər.

Yekunda rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov xüsusi vurğulamışdır ki, bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu, inamlı və stabil inkişafı ölkəmizin Prezidentinin fəaliyyəti ilə birbaşa bağlıdır. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev öz iradəsi, insanlara doğru yolu göstərmək bacarığı ilə xalqı vahid məqsəd uğrunda səfərbər edən və arxasınca aparan əvəzolunmaz liderdir.

Sonda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə yığıncaq iştirakçıları adından müraciət qəbul olundu, rayonun sosial-iqtisadi inkişafında, abadlıq-quruculuq işlərində, ictimai həyatında fəal iştirak edən bir qrup şəxs rayon icra hakimiyyəti başçısının Fəxri Fərmanı ilə təltif edildi.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

# DAŞKƏSƏN: ÖZ SİMASINI DƏYİŞİB DAHA DA GÖZƏLLƏŞƏN, MÜASİRLƏŞƏN RAYON





**Respublikanın dilbər guşələrindən olan Daşkəsən rayonunda da 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2019-cu ildə qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon hesabat yığıncağı keçirildi. Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Arif Novruzov, Daşkəsən rayonundan Milli Məclisə deputat seçilmiş Kamran Bayramov, Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev, rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri və KİV mənsubları iştirak edirdilər.**

Yığıncaq iştirakçıları ilk öncə ümummilli lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış əzəmətli abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini bir dəqiqəlik sükutla yad etdilər, sonra tədbir Rayon İcra Hakimiyyətinin inzibati binasında davam etdirildi.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev iştirakçıları salamlayaraq, geniş hesabat məruzəsi ilə çıxış etdi. Qeyd etdi ki, 2018-ci il də əvvəlki illər kimi sosial-iqtisadi cəhətdən respublikamız üçün uğurlu illərdən biri olmuşdur.

Ümummilli lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu daxili və xarici siyasət, həyata keçirilən tədbirlər nəticəsində 2018-ci ildə də beynəlxalq aləmdə ölkəmizin nüfuzu artmış, mövqeləri daha da möhkəmlənmişdir. Respublikamızın digər rayonlarında olduğu kimi, Daşkəsən rayonunda da 2018-ci ildə uğurlu işlər və nailiyyətlər əldə olunmuşdur.

Belə ki, 2018-ci ildə Daşkəsən rayonunda faktiki qiymətlərlə ümumi məhsul buraxılışının həcmi 191 milyon 918 min manat olmuş, əvvəlki ilə nisbətən 0,1%, bəzi sahələr üzrə isə xeyli artmışdır.

Ümumi məhsul buraxılışında 2018-ci ildə tikinti üzrə 30476,4 min manat (2017-ci illə müqayisədə 3,2 dəfə çox), nəqliyyat üzrə 3181,7 min manat (2017-ci illə müqayisədə 2,2% çox) olmuşdur.

2018-ci il ərzində rayon ərazisində bir sıra tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işləri görülmüş və hazırda da bəzi sahələr üzrə həmin işlər davam etdirilməkdədir.

Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı tərəfindən maliyyələşən "Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin həyata keçirilməsində son tamamlama işləri yerinə yetirilir. Artıq Daşkəsən şəhəri ekoloji cəhətdən təmiz və fasiləsiz olaraq içməli su ilə təmin olunur.

Güneykənd kənd tam, Daşkəsən qəsəbə, Almalı və Şahvələdli kənd ümumi orta məktəblərində yeni modul tipli məktəb binaları tikilərək istifadəyə verilmiş, Gurbulaq kənd ümumi orta məktəbində isə modul tipli məktəb binasında tikinti işləri davam etdirilir.

Daşkəsən şəhər İ.Nəsimi adına 1 saylı, A.Mürsəlov adına 2 saylı, S.Vurğun adına 4 saylı, Alunitdağ qəsəbə, Qabaqtəpə kənd, Mollahəsənli kənd, Qazaxyolçular kənd tam orta və Tapan kənd ümumi orta məktəblərində, Uşaq Gənclər İdman Şahmat və Uşaq Yaradıcılıq məktəblərində, Xoşbulaq, Yuxarı Daşkəsən və Bayan kənd həkim məntəqələrində təmir işləri aparılmışdır.

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 29 yanvar 2019-cu il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Fərman respublikanın digər rayonlarında olduğu kimi Daşkəsən rayonunun da sosial-iqtisadi inkişafında böyük rol oynayacaqdır.

"Kənd təsərrüfatı məhsulları istehsalçılarına Dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli 1907 nömrəli sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 fevral 2007-ci il tarixli 32 nömrəli qərarına uyğun olaraq əkin sahəsinin və çoxillik əkmələrin becərilməsinə sərf olunan yanacaq və motor yağlarına görə dövlət tərəfindən buğda üçün hər hektar əkin sahəsinə 90 manat, digər əkinlər üçün isə 50 manat hesabı ilə 2018-ci il ərzində aparılmış əkinlərlə bağlı rayon üzrə 12 nəfərə 482,65 ha əkin üçün 32417 manat məbləğində subsidiya verilmişdir.

Rayonda 3 kartofçuluq üzrə toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Toxumçuluq təsərrüfatlarının artırılması üçün işlər davam etdirilir.

2018-ci il ərzində rayon ərazisində 1200 hektar sahədə kartof, 59 hektar sahədə kələm, 66 hektar sahədə lobya, 45 hektar sahədə tərəvəz və 101 hektar sahədə yonca əkilmişdir. Əkilmiş sahələrdən 11020 ton kartof, 950 ton kələm, 172 ton lobya və 6 ton tərəvəz bitkiləri istehsal olunmuşdur.

Heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə 2018-ci il ərzində 269 baş iribuynuzlu heyvan süni mayalandırılmışdır. Mayalandırılmış heyvanlardan 165 baş bala alınmışdır.

"Arıçılıq haqqında" qanunun tələblərinə uyğun olaraq rayonda arı ailələrinin saxlanması üçün əlverişli şəraitin, imkanların mövcud olması nəzərə alınaraq 2018-ci il ərzində də arıçılığın inkişafı üçün tədbirlər davam etdirilmişdir.

Rayon ərazisində 7791 arı ailəsi vardır. Həmin arı ailələrindən 2018-ci il ərzində 12 ton bal istehsal olunmuşdur.

Rayonun orta məktəb məzunlarından 95 nəfəri respublikanın ali və orta ixtisas məktəblərinə qəbul olunmaq üçün ərizə vermişdi. Onlardan 55 nəfəri ölkənin müxtəlif nüfuzlu ali, 17 nəfəri isə orta ixtisas məktəblərinə qəbul olunmuşlar. Ali məktəblərə qəbul olunan məzunlarımızdan 1 nəfəri 600-dən, 8 nəfəri isə 500-dən yuxarı bal toplamışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə respublikamızın şəhər və rayonlarının ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən növbəti maarifləndirici tur-aksiyalara start verilmiş, Daşkəsən rayonundan 40 nəfər məktəbli "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində 26-29 mart 2018-ci il tarixlərdə Qəbələ-Şəki-Zaqatala, 14-17 noyabr 2018-ci il tarixlərdə isə 20 nəfər məktəbli Lənkəran-Astara-Masallı marşrutunun iştirakçıları olmuşlar.

2018-ci il ərzində 41 yaşayış məntəqəsində səyyar qəbul keçirilmiş, həmin qəbullarda 2366 nəfər iştirak etmiş, 229 müraciət qeydə alınmışdır. Səyyar qəbullarda qaldırılan məsələlərin həll edilməsi üçün aidiyyəti üzrə müvafiq tapşırıq və göstərişlər verilmişdir.

Çıxışının sonunda rayon başçısı Əhəd Abıyev rayona göstərilən sonsuz diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə qədirbilən Daşkəsənlilər adından dərin minnətdarlığını bildirmişdir. Qeyd etmişdir ki, bundan sonra da qarşıda duran ümdə vəzifələr layiqincə yerinə yetiriləcək, rayon sakinləri daha yüksək əzmkarlıq göstərərək, Azərbaycanımızın tərəqqisinə öz töhvəsini verəcəklər.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Arif Novruzov və millət vəkili Kamran Bayramov çıxış edərək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında respublikanın sosial-iqtisadi inkişafı sahəsində əldə olunmuş nailiyyətlərdən möhtəşəm layihələrin icrasından, qarşıdakı perspektivlərdən ətraflı söhbət açdılar.

Hesabat yığıncağının sonunda iştirakçıları adından ölkə Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edildi.

**Z.XƏLİLOV,**
**"Respublika".**

# Zaqatalanın işgüzar, təşəbbüskar və qayğıkeş qadınları

**Son on il Zaqatalanın sosial-iqtisadi və mənəvi həyatında böyük irəliləyişlərlə həkk olunub. Rayon sənaye və kənd təsərrüfatının inkişafı, sosial məsələlərin uğurlu həlli, tikinti, quruculuq və abadlığının vüsəti baxımından respublikanın öndə gedən bölgələri sırasında inamla addımlayıb. Güllər şəhərinin gül ətri daha da çoxalmış, onun sakinlərinin qurub-yaratmaq əzmi qat-qat artmışdır.**

Rayon icra hakimiyyəti başçısının müavini, Yeni Azərbaycan Partiyası Zaqatala Rayon Təşkilatı Qadınlar Şurasının sədri **Vəfa Süleymanova** bizimlə



söhbətində yuxarıdakı fikirləri qeyd edərkən bu inkişafda, tərəqqidə qadınların da böyük əməyini vurğuladı. Bayram ərəfəsində onların da ictimai, iqtisadi-mənəvi dünyalarına səyahət etmək, işgüzarlıqları, təşəbbüskarlıqları haqqında söhbət açmaq yerinə düşər - dedi, sonra sözünə davam edib aşağıdakıları qeyd etdi:

- Rayonumuzun qadınları bütün sahələrdə işgüzarlıqları, təşəbbüskarlıqları, qayğıkeşlikləri ilə fərqlənirlər. Bu gün qabaqcıl təhsil, səhiyyə işçilərindən, bacarıqlı, lazımi idarəetmə təcrübəsi olan, fəal sahibkar və təsərrüfatçıdan, vəzifəsinin öhdəsindən layiqincə gələn mədəniyyət, rabitə, kommunal işçilərindən söhbət düşəndə də Zaqatala qadınlarının adları birincilər sırasında çəkilir. Yeni Azərbaycan Partiyası Zaqatala Rayon təşkilatı öz ətrafında 7690 nəfəri birləşdirir. Onun da 4220 nəfərini qadınlar təşkil edir. Onların hamısı ictimai-siyasi fəaliyyətləri ilə seçilirlər. Rayon icra hakimiyyəti qadın kadrlarının irəli çəkilməsinə və onların əməyinin layiqincə dəyərləndirilməsinə həmişə xüsusi önəm verir. Bu gün rayonumuzda 67 məktəbin 34-nün direktorunun qadınlar olması, ərazi icra nümayəndələrinin, bələdiyyə sədrlərinin sırasında qadınlarımızın da adlarının iftixarla çəkilməsi, mövcud olan 42 uşaq bağçasına rəhbərlik edən qadınlarımızın tapşırılan vəzifənin layiqincə yerinə yetirilməsi üçün can-başla çalışması, ayrı-ayrı fəal qadınlarımızın sahibkarlıq fəaliyyətinə yüksək dəyər verərək bu sahə ilə yaxından məşğul olması yuxarıda dediklərimin əyani təsdiqidir.

Artıq 2018-ci illə iki aydır ki, vidalaşmışıq. Son on il, xüsusilə ötən il rayonumuzun sosial-iqtisadi, mənəvi həyatında böyük uğurlarla yadda qalmışdır. Bu nailiyyətlərin hamısında qadın əməyinin, biliyinin, bacarığının böyük rolu olduğu danılmazdır. Buna görə də 2019-cu ilin 8 Mart Beynəlxalq Qadınlar Günü onlar üçün də daha əlamətdar, daha yaddaqalandır. Ayrı-ayrı sahələrdə çalışan qadınlarımızla da həmsöhbət olsanız bunu görərsiniz.

**Aybəniz Heydərova - Zaqatala Rayon Mədəniyyət Mərkəzinin direktoru:**

—Bəli, ölkəmizdə, rayonumuzda qadın əməyini həmişə yüksək dəyərləndirirlər. Öz əmək yolumdan bunu yaxşı bilirəm. Ali təhsilimi başa vurandan sonra, yəni 1986-cı ildən mədəniyyət sahəsində



fəaliyyətə başlamışam. Fəallığım, tapşırılan işə məsuliyyətli münasibətim əvəzsiz qalmayıb. Bədii rəhbər kimi işə başlasam da, illər sonra klub müdiri, rayon mədəniyyət mərkəzində metodist, baş metodist və ötən ilin mart ayının birindən etibarən mədəniyyət mərkəzinin direktoru kimi fəaliyyət göstərirəm. Bunun özü qadın əməyinə, bacarığına, işgüzarlığına verilən yüksək dəyərin bariz nümunəsidir. İndi rayonumuzda mədəniyyətin inkişafında, bütün mədəni kütləvi tədbirlərin keçirilməsində kollektivimiz xüsusi fəallıq göstərir. Builki bayramımıza mərkəzimizin qadınları əldə etdikləri bir çox uğurlarla gəlmişlər. Qəbələ rayonunda keçirilən mürəbbə, Qax rayonunda keçirilən mətbəx, Oğuz rayonunda olan Şəfa festivallarında rayonumuz da uğurla təmsil olunmuş Fəxri fərmanlar, digər mükafatlara layiq görülmüşdür.

**Namidə Süleymanova - "Azərpoçt" MMC-nin Zaqatala Poçt filialının rəisi:**



—Artıq on altıncı ildir ki, bu vəzifədəyəm. Rayonumuzda bacarığına, təşkilatçılığına, işgüzarlıq və qayğıkeşliyinə görə kadr kimi irəli çəkilən qadınlardan biriyəm. Mənə göstərilən etimadın, daşıdığım vəzifənin məsuliyyətini yaxşı bilir və onun öhdəsindən layiqincə gəlmək üçün əlimdən gələni edirəm. Əhalinin xidmətimizdən narazı qalmamasını təmin etmək qarşımıza qoyduğumuz bir nömrəli vəzifədir. Buna nail oluruq. Rayonun ictimai-iqtisadi həyatında da fəal iştirak edirəm. YAP Zaqatala Rayon Təşkilatının sədr müavini, Zaqatala şəhər bələdiyyəsinin üzvüyəm. Ulu öndər Heydər Əliyev ideyalarının fəal təbliğatçısı olmaq, özünüidarəetmə qurumunun üzvü kimi şəhərin tikinti və quruculuğuna, abadlıq və təmizliyinə yaxından dəstək olmaq mənim üçün şərəfli və məsuliyyətli tapşırıqdır. Əməyim həmişə yüksək qiymətləndirilib. On il bundan öncə 2002-ci ildə öz nazirliyimiz tərəfindən Rabitə Ustası xatirə nişanına layiq görülmüşəm, 2018-ci il isə ömrümün ən yaddaqalan tarixidir. Çünki həmin ildə mən Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüşəm. Bu, mənim 2019-cu ilin 8 Mart - Beynəlxalq Qadınlar Gününə ən layiqli töhfəm, eyni zamanda dövlətimizin qadın əməyinə bəxş etdiyi yüksək mükafatdır.

**Xuraman Şabanova - Yengiyan bələdiyyəsinin sədri:**

—Orta məktəbi qurtarıb ali məktəbə qəbul olunanda, ali təhsilli müəllim kimi fəaliyyətə başlayanda təsəvvürümə gə-



tirməzdim ki, nə vaxtsa mənə bu cür məsuliyyətli bir vəzifəyə etimad göstəriləcək. Bu onun bariz nümunəsidir ki, müstəqilliyinin üçüncü onilliyini yaşayan Azərbaycanımızda qadın əməyi, işgüzarlığı diqqətdən yayınmır, həmişə öz yüksək dəyərini tapır. Anadan olduğum Kəpənəkçi kəndinin sakinləri 2010-cu ildə bələdiyyə seçkilərində mənə yüksək etimad göstərib bələdiyyə üzvlüyünə seçilməyimə səs verdilər. Sonra isə bələdiyyə sədrliyini də mənə etibar etdilər. 2015-ci ildən isə Kəpənəkçi və Yengiyan kəndlərini əhatə edən bələdiyyə sədrliyinə seçildim. Adamlarla daim ünsiyyətdə olmaq, kəndlərin sosial quruculuğu ilə daim maraqlanmaq, əməli iş görmək, vətəndaşların ərizə, şikayət və təkliflərinə həssaslıqla yanaşmaq, fəaliyyətimin ana xəttidir. Ölkəmiz üçün əziz olan 8 Martı kəndlərimizin inkişafı, adamlarımızın iqtisadiyyatının daha da möhkəmləndirilməsi sahəsində əldə olunan yeni uğurlarla qarşılayırıq.

**Ülviyyə Mahmudova - rayon icra hakimiyyəti başçısının Üçüncü Tala kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi:**



—Qadın anadır, eyni zamanda ictimai iqtisadi həyatımızda fəal mövqedə dayanan, dövlətin daha da inkişaf etdirilib möhkəmləndirilməsində ön sırada addımlayan fəallardandır. Bəli, qadın bu gün həm də cəmiyyətin aparıcı qüvvəsidir. O, həkimdir, müəllimdir, kənd təsərrüfatının, sənayenin hansısa bir sahəsində çalışan bacarıqlı mütəxəssisdir, idarəetmə strukturlarında yaxşı mövqe tutan, dövlət qulluğunun müxtəlif pillələrində yer tutan qüvvədir. Rayonumuzun timsalında da bunu aydın görürük. Mən də onlardan biriyəm. Ali təhsilimi başa vurandan sonra müəllim işləmişəm, sonralar isə irəli çəkilərək ərazi icra nümayəndəliyinə işə təyin olunmuşam. Artıq üçüncü ildir ki, inzibati ərazi dairəsinin nümayəndəsi vəzifəsini daşıyıram. Əlbəttə, vəzifəmin nə qədər məsuliyyətli olduğunu və mənə rayon rəhbərliyi tərəfindən böyük etimad göstərildiyini yaxşı bilirəm.

Biz Zaqatalanın işgüzar, təşəbbüskar, qayğıkeş qadınlarının bir neçəsi ilə həmsöhbət olduq və onların vətənə, dövlətə, elə, obaya, ürəkdən bağlılığının, dövlətin hər çağırışına ürəyinin hərarəti, vicdanının səsi ilə cavab verdiyini gördük. Bu cür onlarla, yüzlərlə, minlərlə qadın əməyi, biliyi, təcrübəsi ilə Zaqatala ildən-ilə inkişaf edir.

**Rasim AMANOV,**
**"Respublika".**

# Azərbaycan qadını ölkəmizin tərəqqisinə böyük töhfələr verir



**Tariximizin və mədəniyyətimizin neçə-neçə şanlı, parlaq səhifəsi məhz qadının adı ilə bağlı olmuşdur. Azərbaycan qadını dünyaya bəşəriyyətin mədəni fikir xəzinəsinin incilərini yaradan ədəbi şəxsiyyətlər, görkəmli elm və sənət adamları, tanınmış siyasi xadimlər bəxş etmişdir. Ülvilik, zəriflik və gözəllik rəmzi olan qadın adı, ana adı ölkəmizdə həmişə uca tutulmuşdur. Azərbaycan qadını bütün dövrlərdə öz istedadı, zəkası, iradəsi və əzmi ilə milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və yaşadılmasında müstəsna xidmətlər göstərmişdir.**

Xalqımızın təfəkküründə qadın-ana məfhumu doğma yurdun, Vətən torpağının təcəssümüdür. Ötən əsrdə qadın hüquqlarının qazanılması və qorunması yolunda misilsiz uğurlar əldə etmiş Azərbaycan qadını bu gün artıq ölkəmizin ictimai-siyasi, iqtisadi, mədəni həyatının fəal iştirakçısıdır. Çağdaş Azərbaycan qadını bacarıqlı siyasətçi, iş adamı, dövlət məmuru, xalqın inanıb səs verdiyi deputatdır. O, taleyüklü milli məsələlərin həllinə sanballı töhfələr verir. Dövlət quruculuğunda onun yüksək ehtirama layiq mövqeyi bu gün qeyd edilən bayramı müstəqillik ideyası ətrafında sıx birləşən xalqımızın və cəmiyyətimizin bayramına çevirmişdir. Elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə qazandığı nailiyyətlər Azərbaycan qadınının çox böyük potensiala malik olduğunu zaman-zaman təsdiq etmişdir.

Bəşəriyyət tarixində ən əlamətdar günlərdən biri olan 8 Mart — Beynəlxalq Qadınlar Günü bayram kimi hər il müxtəlif dünya dövlətlərində, eləcə də respublikamızda təntənəli şəkildə qeyd olunur. Qədimdən Azərbaycanda qadına - anaya daim böyük ehtiram və hörmət bəslənmiş, ana həmişə müqəddəs olmuş, namus, qeyrət rəmzi sayılmışdır. Müdrik hökmdar, cəsur sərkərdə, istedadlı şair və sənətkar qadınlarımızın adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır.

Ulu öndər Heydər Əliyevin 1998-ci il 14 yanvar tarixli fərmanı ilə gender siyasətinin həyata keçirilməsi məqsədilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Komitənin yaradılmasında əsas məqsəd qadınların hüquqlarının qorunmasından və ölkəmizin sosial və siyasi həyatında onların iştirakının artırılmasından ibarət olmuşdur.

Ulu öndər Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasında Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" 2000-ci il 6 mart tarixli fərmanın icrası ilə əlaqədar olaraq aparılan uğurlu işlər belə statistik nəticəyə gəlməyə əsas verir ki, respublikada qadınların təhsil, məşğulluq, sahibkarlıq fəaliyyəti, rəhbər vəzifələrdə təmsil olunma səviyyəsi əvvəlki illərə nisbətən getdikcə yüksələn xətt üzrə inkişaf edir.

Bu gün respublikamızda dövlət qadın siyasəti, bu istiqamətdə ulu öndər Heydər Əliyevin əsasını qoyduğu ənənələr ölkə Prezidenti İlham Əliyev tərəfindən layiqincə həyata keçirilir. Prezident İlham Əliyev qadınların cəmiyyətdəki roluna və yerinə, onların dövlət idarəçiliyində təmsil olunmalarına, irəli çəkilmələrinə diqqətlə yanaşır. 2006-cı ildə Prezident İlham Əliyevin sərəncamı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi kimi yenidən formalaşdırılmışdır.

Zaman keçdikcə, bütün dünyada olduğu kimi, Azərbaycan cəmiyyətində də qadının rolu daha da artır, o, ictimai-siyasi, iqtisadi, mədəni həyatın fəal iştirakçısına çevrilir. Taleyüklü məsələlərin həlli yönündə qərar vermək səlahiyyəti əldə etməklə bu günün lideri rolunu oynayır.

Qadınlar ölkənin bütün ali orqanlarında əzmlə, məsuliyyətlə çalışırlar. Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva istər ölkəmizdə, istərsə də vətəndən uzaqlarda öz işi, bacarığı və əvəzsiz keyfiyyətləri ilə Azərbaycan xanımlarını ən yüksək səviyyədə təmsil edir və Azərbaycan qadınının nələrə qadir ola biləcəyini gördüyü işlərin sanbalı ilə sübut edir.

Müasir dövrdə qadınlarımız müstəqil Azərbaycanın inkişafına öz dəyərli töhfələrini verir, beynəlxalq qadın hərəkatında fəal iştirak edirlər. Qadınların bu xidmətləri - gənc nəslin sağlam, vətənpərvərlik ruhunda böyüməsində sərf etdikləri əməyi yüksək qiymətləndirilir, onlara daim böyük diqqət və qayğı göstərilir.

Azərbaycan gəncliyinin layiqli nümayəndəsi, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da Azərbaycanın tanıdılması, Qarabağ həqiqətləri haqqında gerçəyin dünyaya çatdırılması istiqamətində geniş və məqsədyönlü fəaliyyət göstərir. Onun təşəbbüsü ilə keçirilən tədbirlər həm də Azərbaycan gənclərinin potensialından xəbər verir...

Son illərdə paytaxtda və regionlarda qadınların sahib olduğu müəssisələrin sayının artdığı müşahidə olunur. Qadın sahibkarlığının inkişafı yoxsulluğun azaldılmasına, onların iqtisadi və sosial nüfuzunun artmasına və bir çox hallarda cəmiyyətdə gender bərabərsizliyinin aradan qaldırılmasına yardım edir. Milli iqtisadiyyatın Azərbaycanda davamlı inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini və sosial rifahının daha da yaxşılaşdırılmasını təmin edir. Bu strategiyaya qadın sahibkarlığının inkişafı da daha çox dəstək göstərir.

Müasir dövrdə qadınlarımızın ölkə həyatında rolunu yüksək qiymətləndirən Prezident İlham Əliyev demişdir: "Əminəm ki, cəmiyyət qarşısında öz məsuliyyətini bütün dərinliyi ilə dərk edən Azərbaycan qadını bundan sonra da müstəqil respublikamızın tərəqqisinə böyük töhfələr verəcək". Bəli, həqiqətən bu gün görkəmli qadın şəxsiyyətlərimizin yüksək ləyaqətinin, ağbirçək analarımızın müdrikliyinin daşıyıcıları kimi müasir Azərbaycan xanımları öz dərin zəkaları və tükənməz daxili potensialları ilə xalqa və cəmiyyətə fədakarcasına xidmət edir və sosial aktivliyi özündə cəmləşdirir. Fürsətdən istifadə edərək bu bayram münasibətilə Azərbaycan Respublikasının Birinci xanımı Mehriban Əliyevanı və onun timsalında Azərbaycanın bütün qadınlarını təbrik edir, həyatlarında səadət arzulayıram.

Qadınlar həm xalqımızın mənəvi, mədəni ənənələrin qorunmasında, həm də bütün sahələrdə o cümlədən ictimai və siyasi həyatda mühüm rol oynamaqla müstəqil respublikamızın inkişafında fəal iştirak edir, öz töhfələrini verirlər.

**Sevda YUSUBOVA,**
**"Şərq Kimya Şirkəti - Bakı" şirkətinin təsisçisi.**

# Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbir

**Bakı Mühəndislik Universitetində müəllim və tələbələrin iştirakı ilə "8 Mart - Beynəlxalq Qadınlar Günü"nə həsr olunmuş bayram tədbiri keçirilib. Tədbirdə xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan qadını ilə bağlı dəyərli fikirlərini əks etdirən videofilm izlənilib.**

BMU-nun rektoru, professor Havar Məmmədov bayram münasibəti ilə universitetin xanım əməkdaşlarını və tələbələrini təbrik edib, xoş arzularını çatdırıb. Bildirib ki, ölkəmizin dünya ölkələri arasında nüfuzu gündən-günə artır. Bu nailiyyətlərin əldə edilməsində, ölkəmizin ictimai-siyasi həyatında Azərbaycanın mərd və fədakar qadınlarının böyük rolu var. Ulu öndər Heydər Əliyevin sözləri ilə desək, "Azərbaycan qadını tarix boyu ağlı, zəkası, qeyrəti, namusu, vətənpərvərliyi ilə millətinə, torpağına olan hədsiz məhəbbəti ilə tanınmışdır".

Ölkəmizdə qadınlar üçün yaradılan şəraitdən danışan rektor möhtərəm Prezidentimiz İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkəmizin ictimai həyatında qadınların fəaliyyətlərini hər zaman yüksək qiymətləndirdiklərini, onlara xüsusi diqqət və qayğı göstərdiklərini qeyd edib.

Daha sonra universitetin tələbələri YAP Gənclər birliyinin sədri Günel Salahova və İlqar Bəşirov çıxış edərək ölkəmizdə qadınlara yaradılan imkanlardan danışıblar.

**M.MİRZƏ,**
**"Respublika".**

# Azərbaycan qadınları həyatın bir çox sahələrində əldə etdikləri uğurlarla fəxr edirlər



**Azərbaycan qadını 1918-1919-cu illərdə Azərbaycan Xalq Cümhuriyyəti dönəmində ilk dəfə seçmək və seçilmək hüququ qazandı. Cəmiyyətdə kişilərlə bərabər hüquqlara malik olan qadınlarımız ölkəmizin ictimai-siyasi həyatında geniş fəaliyyət göstərdilər. 1977-ci ildə isə ulu öndərimiz Heydər Əliyevin qadınlar haqqında dediyi müdrik sözlər Azərbaycan qadınına inamı, güvəni, qayğını bir daha artırmış oldu. "Azərbaycan qadını öz ağlına, zəkasına, biliyinə güvənən bir qadındır və bu qadın hər zaman Azərbaycanın adını yüksəklərdə tutur".**

Məhz milli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qadınlar ölkənin ictimai-siyasi həyatında önə çəkildilər. Ümummilli lider belə demişdir: "Siz Azərbaycanın ictimai-siyasi həyatının fəal iştirakçılarısız və arzu edirəm ki, bundan sonra da belə fəal olasınız və mən də öz tərəfimdən bütün imkanları yaratmağa çalışacağam". Azərbaycan qadınının şəxsiyyətinə böyük hörmətlə yanaşan ulu öndər Heydər Əliyev ölkəmizdə həyata keçirilənlər qadın siyasətinin əsaslarını yaratdı, ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırdı. Qadınların qabiliyyətlərini üzə çıxararaq, onlara dəstək oldu. Dövlət qadın siyasəti, cəmiyyətdə qadınların rolunun artırılması, qadın problemlərinin həll olunması ulu öndərin məqsədinə çevrilmişdi. Bu demokratik imkanlara malik olan cəmiyyətin yaradılmasının göstəricisi idi, 1995-ci ildə ölkəmiz qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında konvensiyaya qoşuldu. 1998-ci ildə Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. 2006-cı ildə isə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət komitəsinə çevrildi. Azərbaycan qadını deyəndə gözümüz önündə iradəli, pak, insansevər bir obraz canlanır. Tarixi qadın şəxsiyyətlərimiz, dastanlarımızda, yazıçı və şairlərin qələmə aldıqları əsərlərdə əks olunan qadınlarımızın mərd, fədakar obrazı, müsbət xasiyyətləri bütün qadınlara örnək və nümunədir. Azərbaycan qadını davranışı, istedadı, cəsurluğu, mübarizliyi ilə dünya da tanınır. Analarımız Azərbaycanın tarix salnaməsində də öz izlərini qoymuşdur. Tarixdə hökmdar Tomrisin mərdanəliyi, ölkələr fatehi İsgəndəri öz ağlı ilə fəth edən Nüşabə, diplomat Sara Xatun kimi sülh və əmin-amanlıq elçisi, Koroğlunun, Nəbinin Nigarı və Həcəri, xan qızı Natəvanın Azərbaycan qadınının ümumiləşmiş obrazı və digər cəsur qadınlarımız XXI əsrin Azərbaycan qadınına qürur hissi verir. Azərbaycan ədəbiyyatının formalaşmasında yazdığı əsərləri ilə, istedadlı rəssamlığı, şairəliyi, azad düşüncə tərzi ilə tarixdə seçilən Qarabağın fəxri, Mehdi qulu Xanın qızı Xurşudbanu Natəvan əsl Şərq qadını obrazı yaradaraq Azərbaycan qadınına xas ən yüksək keyfiyyətləri bu gün də öz adı ilə yaşadır. Lakin siyahı təkcə bunlarla bitmir. Hökümə Qurbanova, Leyla Bədirbəyli, Nəcibə Məlikova, Nəsibə Zeynalovanın canladırdıqları obrazlar, Şövkət Ələkbərovanın insanı heyran edən səsi, xoş avazı, ürəklərə yol tapan Mirvarid Dilbazi kimi şairə və digər yüzlərlə qadın Azərbaycanı daha da məşhur etmişlər. Qadınlara kainat baş əyir. Qadın çünki ilk öncə qadın anadır. Qadın dünyaya övlad gətirir, vətənə igid oğullar verir. Bu igid oğullar Azərbaycan ordusunun qüdrətidir. Gələcəyə layiqli övlad yetişdirib, tərbiyə edən də analarımızdır. Dünyada ən fədakar ana, ən cəsur, mərd qadın, vəfalı, etibarlı, sadiq həyat yoldaşı Azərbaycan qadınıdır.

Bu gün dövlətimiz tərəfindən Azərbaycan qadınına böyük diqqət göstərilir. Azərbaycan qadınının tarix boyu bu günə kişilərlə çiyin-çiyinə qəhrəmanlıq göstərmək və hər zaman çətin məqamlarda onların yanında olması qadınlarımızın mərdliyindən, qəhrəmanlığından xəbər verir. Azərbaycan qadını öz soykökünü, xalqının mədəni irsini, tarixi adət-ənənələrini, ana dilini, mənəviyyatını qoruyur, Düzgün qərar qəbul etmək bacarığı, böyük potensiala malik olması ilə hamını heyrətləndirən qadın dövlət xadimləri tarixmizin ayrı-ayrı dövrlərində yaşayıb fəaliyyət göstərərək dünya qadın hərəkatının qürur səhifələrinə çevrilib.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev respublikanın həyatında qadınların rolunun daha da yüksəlməsinə yönəlmiş güclü strategiyanın həyata keçirməsini təmin edir. Azərbaycan qadını bəşəri dəyərləri özündə ehtiva edən bugünkü cəmiyyətimizdə "Birinci xanım" ənənələrini bərqərar edərək dövrün tələblərinə uyğun inkişaf etdirməyə nail olmuşdur.

Respublikamızda qadın hərəkatının geniş vüsət almasında, xanımlarımızın nəcib və xeyirxah məqsədlər naminə sistemli və ardıcıl fəaliyyətinin genişləndirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Mehriban xanım Əliyevanın xidmətləri böyükdür. Azərbaycan qadını üçün səciyyəvi olan humanizm, qayğıkeşlik və insanpərvərlik kimi ali keyfiyyətlər Mehriban xanım Əliyevanın şəxsiyyətində daha parlaq təcəssümünü tapır. Mehriban xanım Əliyeva akademik Arif Paşayevin və şərqşünas alim Aida xanım İmanquliyevanın ailəsində dünyaya göz açıb, XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Mir Cəlal Paşayevin və Nəsir İmanquliyevin ocağından nur almışdır, onun həyat müəllimləri isə dahi lider Heydər Əliyev və görkəmli oftalmoloq Zərifə xanım Əliyeva olmuşdur. Mehriban xanım Əliyevanın üzərinə götürdüyü böyük missiya Azərbaycanda qadın hüquqlarının yüksək səviyyədə təmin edilməsidir. Mehriban xanım ən ucqar kəndimizdə belə yaşayan valideynsiz, kimsəsiz, əqli və fiziki cəhətdən qüsurlu olan körpəni, uşağı, xəstə canı ilə çarpışan balalarımızı özünə yaxınlaşdırır, doğmalaşdırır, bağrına basıb Azərbaycan adlı məmləkətimizin mərhəmətli qol-qanadlarını onların üzünə açır. Respublikamızın müxtəlif guşələrində yerləşən körpələr evinə ziyarət edir, onların həyatı, sağlamlığına həssaslıqla yanaşır, əziz bayramlarda ölkəmizin ən möhtəşəm saraylarında balalarımızın qəlbinə sevinc, könlünə xoş ovqat bəxş edir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əhaliyə göstərdiyi xidmət təqdirəlayiqdir. Heydər Əliyev Fondunun məqsədləri sırasında yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək mühüm yer tutur. "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Yeniləşən Azərbaycana yeni məktəb", "Tolerantlığın ünvanı-Azərbaycan", "Təhsilə dəstək" layihələri kifayət qədər mühüm fəaliyyətlərdəndir. Mehriban xanımın xeyirxah əməlləri, təhsilimizin, milli dəyərlərimizin təbliği, inkişafı xalqın rifahı naminə gördüyü işlər Azərbaycan qadınının uğurla fəaliyyət göstərməsinə bariz nümunədir. Bu, beynəlxalq aləmdə sonsuz rəğbətlə qarşılanır. Qərb dünyası Mehriban Əliyevanı Şərqin ağıllı, müdrik, peşəkar bir siyasətçisi kimi tanıyaraq Azərbaycan qadınının ictimai-siyasi həyatda oynadığı rolun əhəmiyyətini görür. Mehriban xanım Əliyevan cəmiyyətdə qadınların oynadığı rol barədə demişdir: **"Azərbaycan qadınları həyatın bir çox sahələrində əldə etdikləri uğurlarla haqlı olaraq fəxr edirlər. Tarix boyu Azərbaycanda mədəniyyətimizin, milli dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanılmasında qadınların misilsiz xidməti olubdur. Azərbaycanda qadın, ana hər zaman müqəddəs sayılıbdır".**

Ulu öndər Heydər Əliyev deyərdi ki, **Qadın dünyadır, qadın həyatdır, qadın insanlığı yaşadan müqəddəs varlıqdır: "Azərbaycan qadınına eşq olsun, eşq olsun, eşq olsun!"**

**Günel MƏLİKLİ,**
**BDU-nun müəllimi,**
**AMEA-nın Fəlsəfə İnstitutunun elmlər doktoru proqramı üzrə dissertantı, siyasi elmlər üzrə fəlsəfə doktoru.**

10 Mart Milli Teatr Günüdür

# Səhnə fədaisi



**Azərbaycan teatrı... Onun tarixi hələ tam şəkildə öyrənilməsə də aparılan araşdırmalar insana qürur gətirən bəzi məqamları, faktları üzə çıxara bilib: Yalnız Azərbaycanda deyil, Yaxın və Uzaq Şərqdə, bütünlüklə müsəlman dünyasında ilk dramaturgiyanın banisi xalqımızın dahi övladı Mirzə Fətəli Axundzadədir, elə ilk peşəkar teatr da Azərbaycanda yaranıb, ilk peşəkar teatr aktyorları da Azərbaycanda yetişib. İlk peşəkar opera əsəri ("Leyli və Məcnun"), ilk operetta, ilk balet, ilk musiqili komediya teatrı da məhz Azərbaycan teatrının nailiyyətidir. Bu ilkləri bir qədər də uzatmaq olardı, təəssüf ki, bir qəzet məqaləsi çərçivəsində bunu etmək çətindir.**

Həm də Milli Teatr Gününə həsr etdiyimiz bu yazının konkret ünvanı var: görkəmli teatr və kino aktyoru, ilk operamız "Leyli və Məcnun"un rejissoru, Azərbaycanın peşəkar teatr sənətinin banilərindən biri Hüseyn Ərəblinski. O, 1881-ci ildə Bakıda dənizçi ailəsində anadan olub, 1919-cu il martın 5-də qətlə yetirilib. Cəmi 38 il ömür yaşayıb...

XX əsrin ilk iki onilliyi Azərbaycan milli incəsənət və ədəbiyyatının inkişaf dövrü idi və o, geniş addımlarla irəliləyirdi. Təəssüf ki, bu prosesin önündə gedənlər bu tərəqqini sevməyənlərin, ona qarşı çıxanların kəskin hücumuna məruz qalır, hətta cani gülləsinə də tuş gəlirdilər. Hüseyn Ərəblinski də bütün şüurlu həyatını bu böyük amala qurban verənlərdən biri idi: "Mən bu yolda öz mənfəətim üçün deyil, şöhrət üçün deyil, səhnəyə məhəbbət xatirinə işləyirəm" - deyirdi.

Bu bir həqiqətdir ki, XX əsr Azərbaycan səhnəsinin inkişaf dövrünün başlanğıcı bilavasitə ilk növbədə, Hüseyn Ərəblinskinin adıyla bağlıdır, çünki o, bu dövrün şəksiz parlaq nümayəndələrindən biridir. Onun həyat və fəaliyyəti elə Azərbaycan teatrının yüksəliş dövrü tarixidir. Professor Cəfər Cəfərov yazırdı: "Ərəblinski peşəkar aktyor idi. Bu isə tarixi əhəmiyyəti olan bir faktdır. Məlumdur ki, bədii yaradıcılıqda professionallaşma, yəni bədii yaradıcılığı iqtisadi bir faktora çevirmək prosesi bəşəriyyətin bədii inkişafında çox mühüm bir mərhələ olmuşdur".

Hüseyn Xələfov ilk dəfə 1897-ci ildə 16 yaşında ikən səhnəyə çıxmışdır. Həvəskarlardan ibarət teatr truppasının tərkibində həmin il Novruz bayramı münasibətilə hazırlanan Mirzə Fətəli Axundzadənin "Xan Sərabi" adlı komediyasında mehtər Kərim rolunu oynayan Hüseyn elə ilk roldan özünün teatr, səhnə üçün doğulduğunu təsdiqləyə bildi.

Üzeyir bəy Hacıbəyli "İnqilab və mədəniyyət" jurnalının 1939-cu il 4-cü sayında yazırdı: "... Azərbaycanda teatr sənətinin doğuluşunda görkəmli rol oynayan simalardan biri Hüseyn Ərəblinskidir. 1906-cı ildə Sarabski ilə bir yerdə Ərəblinski ilə ilk dəfə tanış olduğum günləri yaxşı xatırlayıram. H.Ərəblinski o zaman teatr tamaşaları göstərən bir qrup təşəbbüsçü həvəskar ilə bir yerdə oynayırdı. Ərəblinski hələ o vaxt özünün aktyorluq sənətinə bəslədiyi tükənməz arzusu, səmimiyyəti, coşqunluğu ilə başqalarından çox fərqlənir, duyğusunu məharətlə öz əlinə alırdı..."

Özünəməxsus beynəlmiləl xüsusiyyəti olan aktyor Bakıda ən yaxşı rus artistləri ilə yaxın əlaqə saxlayır, onlardan öyrənir, öz həvəskar yoldaşlarını da öyrədirdi. Onun ən böyük xidmətlərindən biri rus və Qərbi Avropa dramaturgiyasından geniş istifadə etməsi idi. Molyer, Şiller, Şekspir, Heyne, Volter kimi sənətkarları Azərbaycan tamaşaçısına, bütünlüklə xalqımıza tanıtdıran məhz H.Ərəblinski olmuşdur, çünki onun sevimli rolları içərisində həmin müəlliflərin əsərlərinin qəhrəmanları mühüm yer tuturdu. O, "Otella" və "Hamlet" tamaşalarındakı obrazları ilə böyük sensasiya yaratmışdı. "Otella" tamaşası göstərilən gün tamaşaçılar arasında olan Ə.B.Haqverdiyev və N.B.Vəzirov onun bənzərsiz ifasından riqqətə gələrək tamaşanın sonunda səhnə arxasında aktyoru qucaqlayıb öpmüş və hər ikisi bir ağızdan: "Biz Şekspiri Azərbaycan səhnəsində gördük, indi rahat ölə bilərik" - demişdilər.

Rus rejissoru Levin başına çələnglər salınmış aktyoru təbrik edərək: "Mən 20 il suflyor və 5 il rejissor olmuşam, bir çox tragiklər görmüşəm, lakin sizdəki istedad və məharətin misli və bərabərini görməmişəm. Hərgah siz bu rolu rus dilində ifa etsəydiniz, mən öz rejissorluğumu buraxıb sizinlə birlikdə bütün Rusiyanı və hətta Avropanı gəzərdim".

Hüseyn Ərəblinskinin qastrol səfərləri də sensasiya yaradırdı. 1913-cü ildə Tiflisə qastrolu şəhərin mədəni həyatında mühüm hadisə idi. Qastrol günlərində "Dəmirçi Gavə" pyesi oynanılmışdı. Gürcüstanın Xalq artisti A.Vasadze öz xatirələrində yazırdı: "Tiflis Hüseyn Ərəblinskinin qastrol səfərinin intizarındaydı. Nəhayət ki, gəldi. Necə gəldi. Şəhərdə tufan qopdu. Cəsarətlə bildirim ki, Hüseyn Ərəblinski öz dövrünün ən dahi sənət ustalarından biri idi". Hüseyn Ərəblinskinin Tiflisə qastrol səfərləri Tiflis Azərbaycan teatrının tərəqqisinə böyük təsir edirdi. Hələ 1908-ci ildə Tiflisdə yerli teatr truppası üzvlərinin iştirakı ilə "Nadir şah", "Əlmənsur", "Zorən təbib", "Ağa Məhəmməd şah Qacar", "Dursunəli və Ballıbadı" kimi əsərləri müvəffəqiyyətlə tamaşaya qoyulmuşdu.

Sonrakı illərdə də bu şəhərdə Hüseyn Ərəblinskinin iştirakı ilə "Sultan Əbdül Əziz", "Qəzavat", "Dəmirçi Gavə", "Məmmədəli Mirzə Qacar", "Məmmədəli şah və yaxud ləkkeyi təxti kəyan" əsərləri öz səhnə həyatını yaşayır.

Azərbaycanın səhnə ustaları 1911-ci ildən başlayaraq, tez-tez Orta Asiya şəhərlərinə də qastrol səfərlərinə gedir, əsərlər tamaşaya qoyurdular. Bu, o zaman tərəqqipərvər ziyalılar tərəfindən rəğbətlə qarşılanırdı. 1911-ci ilin mart ayında Azərbaycan artistləri ilk dəfə Hüseyn Ərəblinskinin rəhbərliyi ilə Səmərqəndə gəlir, burada əsərlər tamaşaya qoyurlar. Bu iş sonrakı illərdə də davam etdirilir. Ümumiyyətlə, Orta Asiyada, o cümlədən Özbəkistanda teatrın yaranması, operaların səhnəyə gətirilməsində azərbaycanlı sənət xadimlərinin misilsiz xidmətləri olmuşdur.

Sənətkarın Dərbənd qastrolu da çox uğurlu keçmişdi. "İrşad" qəzeti özünün 20 avqust tarixli 196-cı sayında yazırdı: "Hüseyn Xələfov (Ərəblinski) sentyabrın ortalarında "İkinci teatr dəstəsi" ilə Bakıdan Dərbəndə getmişdi. Onlar burada birinci olaraq Nəcəf bəy Vəzirovun "Müsibəti Fəxrəddin" dramını oynamış və Xələfov da Rüstəm bəy rolunu ifa etmişdi.

Həmin gecə oynanan "Dursunəli və Ballıbadı" məzhəkəsində isə Xələfov Ağacəfər rolunu oynamışdır".

Hüseyn Ərəblinski Azərbaycan səhnəsinin dühası oldu və bir düha kimi bu səhnəni dünya mədəniyyətinin ən qabaqcıl keyfiyyətləri ilə bağladı, xalqının arzuları, idealları ilə tərcüman ola bildi. Onun üçün rolun böyüyü, kiçiyi yox idi, yaratdığı obrazlara eyni sevgi ilə həyat verirdi. O, Şillerin "Qaçaqlar" faciəsindəki Karl Moor rolunu, Qoqolun "Müfəttiş" komediyasında Xlestakov rolunu, "Otello"da Otellonu, "Hamlet"də Hamleti, "Müsibəti Fəxrəddin"də Rüstəm bəyi, "Hacı Qara"da naçalnik rolunu eyni səviyyədə, peşəkarcasına oynayıb möhürləmişdi.

Sultan Məcid Qənizadə yazırdı: "...Şillerin "Qaçaqlar" adı ilə yazdığı faciənin tamaşasında Karl Moor rolunu nəhayət əzəmətlə oynayırdı. Bu rolda Ərəblinskini iki dəfə gördüyümdən mübaliğə hesab olunmasa deyə bilərəm ki, səhnə məktəbi və ya sair bir studiya görməmiş bir türk oğlu alman dahisinin nəqşiyyəsini qərb artistlərinin çoxundan doğru oynamağa müvəffəq oldu".

1919-cu il 3 mart... Bakı klubu səhnəsində N.Nərimanovun "Nadir şah" dramı oynanılırdı. Musiqi çalınır, pərdə qalxır, səhnə açılır. Ərəblinski səhnədə görünür... Sultan Məcid Qənizadə yazırdı: "... Bu gecə Hüseyn iqtidarının oğrusu övcünda seyr edirdi. Artistin çöhrəsi buqələmun cildi kimi anən-fənən rəngdən-rəngə düşdüyü əsnada ağzından üfürən atəşin söz alovu səməndər nəfəsi kimi tamaşaçıların ürəyini alışdırırdı... Bəli, o son gecə, son tamaşa idi. Sabahı gün dayısı oğlu Əbdülxalıqın gülləsi onu əbədi susdurdu..."

O, bir fədai idi, səhnə fədaisi. Düz 20 il aclığa, susuzluğa, hər cür məhrumiyyətlərə dözüb bütün türk dünyasının qəhrəmanı oldu. Özünün tükənməz istedadı, bacarığı ilə ölməz obrazlar yaradıb tarixləşdi.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

# Ölkə idmanının inkişafına öz töhfəmizi əsirgəməyəcəyik

**Bu bir həqiqətdir ki, Azərbaycan hazırda dünyada idman dövləti kimi tanınır. Bunu son illər ölkəmizdə bu sahədə yaradılan güclü infrastruktur, idmançılarımızın dünya, Avropa və olimpiya oyunlarında qazandıqları parlaq nəticələr sübut edir. Ölkəmizin bir çox mötəbər idman tədbirlərinə yüksək səviyyədə ev sahibliyi etməsini də bura əlavə etsək lap yerinə düşər.**

Xatırladaq ki, Azərbaycanın dünyada inkişaf etmiş idman mərkəzlərindən birinə çevrilməsində ümummilli lider Heydər Əliyevin xidmətləri əvəzsizdir. Belə ki, böyük öndərin 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışından sonra bədən tərbiyəsi və idman sahəsində əsaslı dönüş yaradıldı. İlk addım olaraq 1994-cü ildə Gənclər və İdman Nazirliyi və Gənclər Fondu təsis edildi. 1996-cı il avqustun 14-də Milli Olimpiya Komitəsinin üzvləri ilə görüşündə dahi rəhbər demişdir: "Şəxsən mən söz vermişəm ki, idmana xüsusi qayğını öz üzərimə götürürəm. Əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz". Bəli, ümummilli lider tərəfindən səslənən bu fikir sonrakı illərdə müstəqil respublikamızda idmanın inkişafında bir daha öz təsdiqini tapdı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bütün sahələrdə olduğu kimi, bədən tərbiyəsi və idmanın inkişafında da böyük öndərin başladığı strategiyanı son 15 ildə uğurla davam etdirir. Təkcə bir faktı nəzərə çatdırım ki, hər ilin sonunda ölkə rəhbərinin idmançılarla, bu sahədə çalışan mütəxəssislərlə görüşüb onları yüksək naliyyətlərə görə təltif etməsi dediklərimizin əyani sübutudur. 2018-ci il dekabrın 13-də Milli Olimpiya Komitəsində ilin idman yekunlarına həsr olunan mərasimdəki çıxışında Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev demişdir: "Hər il idmançılarla görüş zamanı biz ilin idman yekunlarını müzakirə edirik, gələcək planlar haqqında danışırıq. 2018-ci il ölkəmiz üçün çox uğurlu il olmuşdur. Bütün sahələrdə, o cümlədən idman sahəsində ölkəmiz böyük uğurlar əldə etmişdir".

Fəxrlə deyə bilərik ki, 2018-ci ili Azərbaycan idmançıları böyük nailiyyətlərlə başa vurublar. Belə ki, ötən il cəmi 753 medal qazanılmışdır ki, bunun da 313-ü olimpiya proqramı, 440-ı isə qeyri-olimpiya proqramı üzrədir. Dövlətimizin başçısı təntənəli idman tədbirlərində dəfələrlə bəyan etmişdir ki, Azərbaycan idmançılarının yüksək nailiyyətlər əldə etməsi bütün federasiyaların, idman cəmiyyətlərinin və klubların birgə fəaliyyətinin bəhrəsidir. Bu baxımdan deyə bilərəm ki, ölkə idmançılarının nailiyyətlərində Azərbaycan Həmkarlar İttifaqı İdman Təşkilatları İctimai Birliyinin (AHİT İB) də öz payı var.

İTİB 2018-ci ildə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının bilavasitə rəhbərliyi altında Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi ilə sıx əməkdaşlıq əsasında nəzərdə tutulmuş konkret tədbirlərin həyata keçirilməsinə və müəyyən nailiyyətlər əldə edilməsinə nail olmuşdur. Qeyd edim ki, AHİT İB-nin strukturuna daxil olan 9 idman təşkilatı, o cümlədən 5 idman cəmiyyəti ("Məhsul", "Spartak", "Gənclik", "Qarabağ" və "Zenit"), 4 idman klubu ("Alpinist və Turist", "Şahmat və Dama", "Atilla" və "Pəhləvan") və 9 Uşaq-Gənclər İdman Məktəbi ötən il uğurla fəaliyyət göstərmişlər.

Ötən il ərzində Hİ İdman Təşkilatlarının əhatə etdiyi 387 bədən tərbiyəsi kollektivlərində 69588 nəfər bədən tərbiyəsi və idmanla məşğul olmuşdur. Onlardan 5887 nəfəri qadınlar və qızlardır.

Ümumiyyətlə, AHİT İB-nin idmançıları 2018-ci il ərzində 272 medal əldə etmişlər. Bunlardan 126-sı respublika, 109-u beynəlxalq turnirlərdə, 36-sı dünya və Avropa yarışlarında və biri isə Yeniyetmələrin Olimpiya oyunlarında qazanılmışdır.

Hİ İdman Təşkilatları əhatə etdiyi 34 təhsil müəssisəsində, o cümlədən 20 ali təhsil, 14 orta ixtisas təhsili ocaqlarında 9769 nəfər tələbə müntəzəm olaraq bədən tərbiyəsi və idmanla məşğul olmuşlar.

Respublikanın şəhər və rayonlarında olan 300 idman bazası və qurğularından, o cümlədən 2 atıcılıq tiri, 10 stadiondan, 8 kompleks idman qurğusundan, 69 idman zalından, 5 üzgüçülük hovuzundan, 180 sadə idman meydançasından və 21 bədən tərbiyəsi-sağlamlıq mərkəzindən, 4 digər qurğudan Hİ İdman Təşkilatları əhalinin sağlamlığının möhkəmləndirilməsi və idmançıların hazırlığı üçün istifadə etmişlər.

Gənc idmançıların hazırlığı ilə 2018-ci ildə Hİ İdman Təşkilatlarının 9 uşaq-gənclər idman məktəbi məşğul olmuşdur (o cümlədən 1 ixtisaslaşdırılmış olimpiya ehtiyatlı və 8 kompleks uşaq-gənclər idman məktəbi).

Bu məktəblərə aid 31 bölmədə 4081 gənc idmançı (o cümlədən 272 qız) il ərzində idmanın 16 növü ilə 196 məşqçi-müəllimin rəhbərliyi altında müntəzəm məşğul olmuşlar.

İl ərzində UGİM-də 498 nəfər dərəcəli idmançı hazırlanmışdır (o cümlədən 3 Əməkdar idman ustası, 6 idman ustası, 22 idman ustalığına namizəd, 60 I dərəcəli və 407 kütləvi dərəcələr üzrə).

**Zenit İC-nin** idmançıları 2018-ci il ərzində beynəlxalq və respublika yarışlarında 80 medal qazanmışlar. Onlardan 50 yer beynəlxalq yarışlarda, 30 yer isə respublika yarışlarında qazanılmışdır.

Zenit İC-nin dünya və Avropa yarışlarında müvafiq yerlərə sahib çıxmış idmançıları: Həsənov Cəbrayıl - dünya kuboku, sərbəst güləş, II yer, Xasalov Əfqan - dünya kuboku, sərbəst güləş, II yer, Həsənov Cəbrayıl - Avropa çempionatı, sərbəst güləş, III yer, Ağayev Vüqar - Avropa birinciliyi, sambo, II yer, Bayramov Turan - Avropa birinciliyi, sərbəst güləş, I yer, Əmirli Əlihəsən - Avropa birinciliyi, sərbəst güləş , I yer, Xasalov Əfqan - Avropa çempionatı, sərbəst güləş, II yer, Əmirli Əlihəsən - dünya birinciliyi, sərbəst güləş, I yer, Bayramov Turan - dünya birinciliyi, sərbəst güləş, I yer, Həsənov Cəbrayıl - dünya çempionatı, sərbəst güləş, II yer. İC-nin respublika yarışlarında qazandığı yerlər: I yer 6 nəfər, II yer 7 nəfər, III yer 17 nəfər.

**Atilla İK-nın** idmançıları 2018-ci ilin on ayı ərzində beynəlxalq və respublika yarışlarında 39 medal qazanmışlar. Onlardan 24 yer beynəlxalq, 15 yer respublika yarışlarında olmuşdur.

Bu klubun dünya və Avropa yarışlarında qazandığı yerlər: Nəcəfov Yaşar - Avropa kuboku, cüdo, II yer, Ağayev Balabəy - Avropa kuboku, cüdo, I yer, Nəcəfov Yaşar - Avropa kuboku, cüdo, II yer, Ağayev Balabəy - Avropa kuboku, cüdo, III yer, Hüseynov Kəramət - Avropa kuboku, cüdo, II yer, Məmmədov Tofiq - Avropa kuboku, cüdo, III yer, Həmidova Şəfəq - Avropa kuboku, cüdo, I yer, Əliyeva Ramilə - Avropa kuboku, cüdo, I yer, Məmmədəliyeva Gültac - Avropa kuboku, cüdo, III yer, Qasımov Elmar - Avropa kuboku, cüdo, I yer, Məmmədov Tofiq - Avropa çempionatı, cüdo, I yer.

Klubun respublika yarışlarında qazandığı nəticələr bunlardır: I yer 6 nəfər, III yer 9 nəfər.

**"Məhsul" KKİC** Respublika Şurası Dövlət Müstəqilliyi Gününə həsr olunmuş Kənd idmançılarının Milli İdman Oyunları üzrə Respublika Spartakiadası Gənclər və İdman Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqları Federasiyası, AHİT İB, "Məhsul" KKİC birgə qərarı ilə kənd idmançılarının Milli oyunlar üzrə ənənəvi XXVIII Spartakiadası keçirilmişdir. Bu tədbirdə respublikanın 17 rayon və şəhərindən 316 idmançı iştirak etmişdir.

KKİC-nin idmançıları 2018-ci il ərzində beynəlxalq və respublika yarışlarında 33 medal qazanmışlar. Onlardan 10 yer beynəlxalq yarışlarda, 23 yer respublika yarışlarında əldə olunmuşdur.

"Məhsul"un dünya və Avropa yarışlarında qazandığı yerlər: Fətullayev Nəzərşah - dünya çempionatı, yunan-Roma, III yer, Mehdiyev Variz - Avropa çempionatı, sərbəst güləş, III yer, Tumarxanova Sona - Dünya çempionatı, sərbəst güləş, III yer, Məhsul İC-dən respublika yarışlarında I yeri 4 nəfər, II yeri 11 nəfər, III yeri 8 nəfər tutmuşdur.

**"Spartak" İC** tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş Sahə Həmkarlar İttifaqı (DİİX işçiləri HİRK) təşkilatlarının komandaları arasında mini-futbol üzrə yarışlar keçirilmişdir. Bu yarışlarda 10 komandanın 100 nəfər idmançısı iştirak etmişdir. "Spartak" İC və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Sağlamlıq - 2018" Respublika Spartakiadası keçirilmiş, bu spartakiadada 8 idman növü üzrə 600 idmançı iştirak etmişdir.



İC-nin idmançıları 2018-ci il ərzində beynəlxalq və respublika yarışlarında 72 medal qazanmışlar. Onlardan 44 yer beynəlxalq yarışlarda, 28 yer respublika yarışlarında olmuşdur.

"Spartak" İC-nin təmsilçisi Hümbətova Zeynəb Avropa çempionatında bədii gimnastika üzrə III yeri tutmuşdur.

"Spartak" İC-dən respublika yarışlarında 21 nəfər I yerə, 3 nəfər II yerə, 4 nəfər III yerə çıxmışdır.

**"Pəhləvan" İK-in** 2018-ci il ərzində beynəlxalq və respublika yarışlarında 23 idmançısı fəxri kürsiyə qalxmışdır. Onlardan 9 yer beynəlxalq, 14 yer respublika yarışlarında olmuşdur. "Pəhləvan" idman klubunun dünya və Avropa yarışlarında qazandığı nəticələr: Həmzətov Asxob (dünya birinciliyi) III yer, Həmzətov Asxob (Avropa birinciliyi) sərbəst güləş, II yer, Mayılov Fuad (Avropa birinciliyi) sərbəst güləş, II yer, Əliyev Elmir (Avropa çempionu) yunan-Roma, I yer, "Pəhləvan" İK-in respublika yarışlarında qazandığı nəticələr bunlardır: (I yer-2 nəfər, II yer-4 nəfər, III yer-8 nəfər).

**"Şahmat və Dama" İK-in** 2018-ci il ərzində rəsmi beynəlxalq və respublika yarışlarında 21 idmançı fəxri yerə layiq görülmüşdür. Onlardan 9 yer beynəlxalq yarışlarda,12 yer respublika yarışlarında olmuşdur.

"Şahmat və Dama" İK-in dünya və Avropa yarışlarında qazandığı nəticələr: Azadəliyev Cahandar - Avropa birinciliyi, Şahmat, I yer, Azadəliyev Cahangir - Dünya birinciliyi, Şahmat, II yer.

"Şahmat və Dama" İK-dən respublika yarışlarında 7 nəfər I yerə, 5 nəfər II yerə sahib çıxmışdır.

Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları ötənilki nailliyyətlərdən ruhlanaraq 2019-cu ildə respublika, dünya, Avropa yarışlarında daha fəal iştirak etməyə və yeni qələbələrə imza atmağa söz vermişlər.

5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə bütün həmkarlarımızı təbrik edir, yeni qələbələr arzulayıram.

**Binyamin MƏMMƏDOV,**
**Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyinin təşkilati işlər, kadrlar və idman şöbəsinin müdiri.**

# Xidmətdə fərqlənmiş sərhədçi qadınlara mükafatlar təqdim olundu

**Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissə və bölmələrində 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə silsilə tədbirlər keçirilmişdir.**



Martın 7-də Dövlət Sərhəd Xidmətinin Aparatında Dövlət Himninin səslənməsi ilə başlayan tədbirdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bayram təbriki sərhədçi qadınlara çatdırılmış, 8 Mart - Beynəlxalq Qadınlar Gününə həsr olunmuş sənədli film nümayiş etdirilmişdir.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin qadınların cəmiyyətimizdəki rolunun artmasına, onların maddi rifahının yaxşılaşmasına, uşaqların sağlam böyüməsinə, azərbaycanlı ailələrin xoşbəxtliyinə göstərdiyi diqqət və qayğıdan, bu gün həmin siyasətin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsindən, qadınlarımızın müstəqil Azərbaycan dövlətinin inkişafındakı xüsusi xidmətlərindən danışılmışdır.

Gözəllik, sədaqət və ismət rəmzinə çevrilmiş, istedadlı və fədakar Azərbaycan qadınlarının mədəniyyətimizin, xalqımızın milli varlığını müəyyən edən mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanmasında və müasir dövrdə yaşadılmasında əvəzsiz xidmətləri ilə yanaşı, ordu qruculuğunda da fəal iştirak etmələri, Vətənimizin sərhədlərinin mühafizəsi kimi çətin və şərəfli vəzifənin yerinə yetirilməsində qadın hərbi qulluqçuların əzmkarlıq göstərməsi, xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlmələri qeyd olunmuşdur.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsinə, ölkəmizin ictimai-siyasi və mədəni həyatının dinamik inkişafına yönəldilmiş əzmkar fəaliyyəti ilə xalqımızın böyük rəğbətini qazanması xüsusi vurğulanmışdır.

Tədbirdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəis müavini general-leytenant Azad Ələkbərov sərhədçi qadınları təbrik etmiş, onlara xoşbəxt və firavan həyat, xidmətdə və şəxsi həyatlarında uğurlar arzulamışdır.

Tədbirin sonunda xidmətdə fərqlənmiş sərhədçi qadınlara mükafatlar təqdim olunmuşdur.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

# Fərqlənən idmançılar təltif olundular

Tədbirdə Şəmkir Rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aynur Abdullayeva, Şəmkir rayon Gənclər və İdman İdarəsinin rəisi, YAP Şəmkir rayon Gənclər Birliyinin sədri Emin İsmayılov, Şəmkir rayon Gənclər və İdman İdarəsinin nəzdində fəaliyyət göstərən Uşaq Gənclər İdman Məktəbinin direktoru Namiq Mahmudov, həmin məktəbin məşqçi-müəllimlərin və idmançıların iştirakı ilə Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə açan Şəmkir rayon Gənclər və İdman İdarəsinin rəisi Emin İsmayılov tədbir iştirakçılarını salamlamış və 5 mart Bədən Tərbiyəsi və İdman Günü münasibəti ilə idmançıları təbrik etmişdir. Vurğulamışdır ki, bu tarix Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Bədən Tərbiyəsi və İdman Günü"nün təsis edilməsi haqqında 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən qeyd edilir. Bu tarix isə təsadüfi seçilməmişdir. Belə ki, 1995-ci il martın 5-də ulu öndər Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib, beləliklə bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyub. Prezident İlham Əliyevin 1997-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinə rəhbər seçilməsindən sonra ölkəmizdə idmana və bədən tərbiyəsinə diqqət daha da artırılıb.



Bu gün Azərbaycanın dünyanın idman mərkəzlərindən birinə çevrildiyini böyük fəxrlə söyləmək olar. Dövlətimizin başçısının idmanı sevməsi, idmançılara xüsusi həssaslıqla yanaşması, yeni Olimpiya İdman komplekslərinin və idman bazalarının yaradılması haqqında qərarları ölkəmizdə idmanın kütləviləşməsinə əlverişli şərait yaradıb.

Şəmkir Rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aynur Abdullayeva rayon rəhbərliyi adından idmançıları bayram münasibəti ilə təbrik edib onlara yeni nailiyyətlər arzuladı.

Daha sonra çıxış edən məşqçi-müəllim Mikayıl Sadıqov idmançılara göstərdiyi diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə və rayon rəhbərliyinə təşəkkürünü bildirib.

Yekunda Şəmkir rayonunda 2018-ci il ərzində yüksək nailiyyətlər əldə etmiş idmançılar diplom və xatirə hədiyyələri ilə təltif olunub.

**Eyvaz HƏMİD,**
**"Respublika".**

# Üzeyir Hacıbəylinin əsərlərində qadın mövzusu

**Görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin çoxyönlü və zəngin yaradıcılığında, heç təsadüfi deyil ki, qadın mövzusu da önəmli yer tutur. Onun ortaya qoyduğu qadın surətləri geniş bir qalereya təşkil edir. Leyla, Minnət xanım, Gülpəri, Gülçöhrə, Asya, Nigar və digər surətlər bəstəkarın operalarında, operettalarında önəmli dramaturji rola malik olmaqla birlikdə, eyni zamanda xalqımızın müxtəlif tarixi inkişaf aşamalarında qadınlarımızın toplumsal yaşamımızda oynadığı rolu, öz hüquq bərabərliyi uğrunda cəsarətlə mücadilə verə bilməsi, yeri gəldikdə kişilərlə birlikdə yabancı işğalçılara qarşı amansız olması və s. bədii boyalarla öz ifadəsini tapmışdır. Böyük sənətkar qadın surətlərinin yaradılmasında, hər şeydən öncə, dönəmin mütərəqqi ictimai-siyasi baxışlarından çıxış edir və qadın azadlığı məsələlərini heç də xalqın ümumi sosial-siyasi və hüquqi azadlığından ayrı təsəvvür etmirdi.**

Əsrlərdən bəri davam edən sosial bərabərsizlikdən, yerli feodal-patriarxal münasibətlərin mürtəce qayda-qanunları, yasaqları qadınlarımızın ləyaqətinin, şərəfinin, istək-arzularının, saf əməllərinin uzun bir zaman çeynənməsinə səbəb olmuşdur. XX əsrin əvvəllərində belə bu son dərəcə mürtəce meyillərin yaşaması və fasiləsiz olaraq ona himayəçilik edənlər hələ də az deyildir. Mürtəce burjua-mülkədar zümrələr, dini istismar edən sosial qruplar hər vasitə ilə qadınların çadra örtməsinə, ərlərinin bütün şıltaqlıqlarına, haqlı-haqsız təhqirlərinə dözmələrinə haqq qazandırır. Bu qaranlıq güclər onları həqiqi azadlıqdan, eyni zamanda hürr olaraq sevib-sevilmək iqtidarından, maarif və mədəniyyətdən ayrı görürdü. Böyük bəstəkarımız qadınlarımızın ləyaqətinin, şərəfinin ayaq altına atılması, onlara qarşı çevrilmiş sınırsız haqsızlıqlara qarşı öz barışmaz səsini ucaltmış və bədii yaradıcılığında bu qəbildən olan mürtəce meyilləri tənqid etmiş, gülüş hədəfinə almışdır. Xüsusilə XX əsrin əvvəllərində toplumsal yaşamımızda baş verən keyfiyyət dəyişikliklərini, tədricən milli şüurun formalaşması sürəcini gözəl duyan bəstəkar, öz əsərlərində yerli mühitdən, sadə insanların istək-arzularından, onların bu və ya digər hadisələrə olan tələbatından çıxış edir. Bu dönəmlər fəaliyyət göstərən müxtəlif sosial təbəqələrin təmsilçilərindən olan bəylərin, qoçuların, milliyətçi ruhlu jurnalistlərin, antidemokratik zehniyyətli aydınların və s. prototiplərini meydana gətirir. Təsadüfi deyil ki, qadın azadlığı məsələsi bütün hallarda ön plana çəkilmiş olurdu. Üzeyir Hacıbəyli ölməz "O olmasın, bu olsun" musiqili komediyasında XX əsrin əvvəllərində Azərbaycanda mürəkkəb ictimai şərait haqqında, paranın oynadığı həlledici rolu haqqında gözəl təsəvvür yaradır. Əsasən o dönəmin Azərbaycan mühiti üçün xarakterik olan mövzuya əl atan müəllif onu bədii gülüş səviyyəsinə qaldıra bilir. Kasıblaşmış Rüstəm bəy paranın xətrinə ağlını itirərək 15 yaşlı qızı Gülnazı 50 yaşlı Məşədi İbada ərə verməyə çalışır. İfrat dərəcəsinə ulaşmış bu qərar hətta dönəmin köhnə qayda-qanunlarından qida almış Rüstəm bəyin tanışlarına da təəccüblü gəlir. Bununla belə, Rüstəm bəyin arzusuna qarşı yalnız Sənəm açıq-aydın etiraz edir. O, sadə xalq təmsilçisidir, sağlam düşüncəli, cəsarətlidir.

Gülnaz isə təmiz qəlblidir, öz məhəbbətinə, sevgilisinə sona qədər sədaqətlidir. Təsadüfi deyildir ki, o, Sərvərə cavabında kəskin olaraq atası Rüstəm bəyin qərarını heç bir zaman qəbul etməyəcəyini söyləyir və sevgilisinə müraciətlə: *"Yox yox, mən səndən başqa kimsəyə getməyəcəyəm. Qoy məni öldürsün, mən səni sevirəm, sənə də gələcəyəm"* - deyir. "Arşın mal alan" əsərinin qəhrəmanı Gülçöhrə də eynilə düşünür. Görmədən, sevmədən, bəxtə-bəxt ərə getməyin əleyhinə çıxır. Gülnaz sevgi azadlığını zənginlikdən üstün tutur, atası Sultan bəyin bütün hədə-qorxusuna baxmayaraq sıradan bir arşınmalçı olan Əsgəri sevir. Bəstəkar burada zahirən sadə süjet xətti kimi görünən sevgi motivində dərin sosial məna olduğunu açıq bir şəkildə göstərə bilir. Sultan bəyin sözlərindən bəlli olur ki, o qızının mutluluğunu onun ancaq zəngin, imkanlı adama ərə getməsində görür, çünki bu, onun şəxsi, sosial mənsubiyyətinə uyğundur. *"Mən bir bəyəm ki, bütün tanışlarım adımı əzbər bilir. Əşi hamı ilə aş yemirəm ki, bığım yağa batar, bir uşağın birisi mənə eniştə olmaq istəyir".*

Ü.Hacıbəyli ilk komediyası olan "Ər və arvad"da da qadın azadlığının, onun ləyaqətinin, şərəfinin tapdanmağı əleyhinə çıxır. Maraqlıdır ki, əsərin gerçək qəhrəmanı Minnət xanım öz ağlı, zəkası, namus və qeyrətilə bütün iştirakçılardan yüksəkdə durur. Sinifli cəmiyyətin, insanların müxtəlif inanclarının, toplumun meydana gətirdiyi əxlaq normalarının qurbanı olan Mərcan bəyin pis niyyətlərini, düşgünlüyünü bilə-bilə eşini doğru yola gətirməyə çalışır. Nəhayət, Minnət xanımın xoş bir niyyətlə işlətdiyi hiylədən sonra Mərcan bəy elə bir gülünc vəziyyətə düşür ki, bu, eyni zamanda bütün müsəlman aləmində geniş yayılmış çox arvadlılıq, kəbin kəsmə və s. kimi zamanını ötürmüş və gerçək ailə əxlaq normaları ilə bir araya sığmayan adət-ənənələrin öz-özlüyündə lazımsız olduğunu göstərir. Təsadüfi deyil ki, Üzeyir Hacıbəylinin opererttaları tez bir zamanda bütün Şərq ölkələrində geniş yayılmış və bu gün də bir çox teatrların repertuarlarında səslənməkdədir. Zənnimizcə, bu böyük marağın səbəblərindən birisini də bəstəkarın əsərlərində qaldırılmış qadın və sevgi azadlığı məsələlərinin eynilə Şərq ölkələrinin bir çoxunda hələ də həll olunmamış, müasir ictimaiyyəti dərindən düşündürməsi ilə izah etmək mümkündür. Təsadüfi deyil ki, "Arşın mal alan" musiqili komediyasının İran seyirçiləri arasında qazandığı böyük uğurun səbəbini mədəniyyət xadimləri yalnız əsərin dərin ideya-məzmunu, incə yumoru ilə bərabər, eyni zamanda əsərdə ifadə olunan ailə-kəbin problemlərinin müasir İran həyatı ilə olduqca yaxın olmasında görürlər. Əsərin iştirakçılarından olan D.Makaddam "Keyhan" qəzetinin Məşhəd müxbiri ilə olan müsahibəsində söyləyirdi ki, əsərin ifası zamanı seyirçilər iki saat televiziya ekranlarından uzaqlaşmışlar və bu, tamamilə təbiidir, çünki komediya ruhən iranlılara çox yaxındır, burada meydana gətirilmiş obrazları xalq hər gün görür. D.Makaddanın söylədiyinə görə, günümüzdəki İranda hələ də elə ailələr var ki, burada gənclər evlənmək istədiklərini öz ana və atalarına, hətta xalalarına belə söyləyə bilmirlər.

Ü.Hacıbəylinin bütün Şərq ölkələrində yayılmış "Leyli və Məcnun"a müraciət etməsi də heç şübhəsiz, müəyyən mənada qeyd etdiyimiz səbəblərlə izah edilməkdədir.

1908-ci ildə Füzulinin eyni adlı faciəsi əsasında bəstələnmuiş ilk Azərbaycan operasında bəstəkar orta çağın aşırı dini etiqadlarından, sxolastik qayda-qanunlarından uzaq olan gənclərin - Leyli və Məcnunun saf məhəbbətini zəngin xalq musiqimizin, muğamlarımızın vasitəsilə daha da ülvləşdirmiş, əbədiləşdirmişdir. Leylinin faciəsi minlərcə Şərq qızlarının faciəsinin ümumiləşdirilmiş ifadəsi kimi verilmişdir. Uzun bir zaman orta Çağ Şərq dünyasında hökm sürən sosial-əxlaqi haqsızlıqlar, eyni zamanda qadınların sosial esitsizligi, istismarı, sosial fəaliyyətsizliyi, sevgi azadlığından məhrum olması və s. operada zəngin və emosional musiqi obrazları, xüsusilə də Leylinin unudulmaz surəti vasitəsilə bütün dolğunluğu ilə açıqlanır. Təsadüfi deyil ki, opera günümüzə qədər seyrçilər tərəfindən ən şox sevilən əsərlərdən sayılır. Bu operanın səhnə taleyi neçə-neçə tanınmış müğənnilərimizin adı ilə bağlı olmuşdur. Bu baxımdan Leyli obrazını meydana gətirən müğənnilərdən Həqiqət Rzayevanı, Sara Qədimovanı, Rübabə Muradovanı, Zeynəb Xanlarovanı, Nəzakət Məmmədovanı və digərlərini qeyd etmək istərdik.

Üzeyir Hacıbəylinin şah əsəri sayılan "Koroğlu" operasında yaradılmış Nigar obrazı öncələr meydana gətirilmiş qadın surətlərindən ayrılır. Azərbaycan qadınlarına xas olan ən gözəl xüsusiyyətlər - zəriflik, incəlik, ləyaqət, sevgilisinə sadiqlik, cəsurluq və s. Nigar surətində öz musiqili-estetik ifadəsini tapmışdır. Eyni zamanda, bəstəkar Nigar surəti vasitəsilə xalqımızın yüksək etik və estetik idealını əks etdirmişdir. Nigar, Koroğlu kimi məğrur bir xalq qəhrəmanının sevgilisi olmaqla bərabər, heç də passiv olaraq qalmır. Xalqın yabançı işğalçılara qarşı, eyni zamanda öz azadlıqları uğrundakı mücadilədə yaxından iştirak edir.

Operada Nigarın daxili aləmi, Koroğluya olan ülvi məhəbbəti, düşmənlərə qarşı sonsuz nifrəti və s. tədricən professional çoxsəsli musiqinin ariya və arioza kimi janrları vasitəsilə açıqlanır. Məsələn, artıq operanın birinci pərdəsində Nigarın oxuduğu ariozadan bəlli olur ki, o qəsbkarların zülmkarlığına, haqsızlıqlarına qarşı barışmaz olub, xalqın mutlu gələcəyinə tam olaraq inanır. Bu pərdədə səslənən ariya isə Nigarın xarakterinin digər tərəfini, yəni Koroğluya olan saf, nəcib məhəbbətini, sadiqliyini ifadə edir. Təsadüfi deyil ki, ariyanın musiqi dili sevgidən doğan lirik əhval-ruhiyyə ilə bağlıdır. Bununla belə, ariyanın musiqisinin orta bölümündə müəyyən emosional dəyişiklik hiss olunur. Musiqinin dili bir qədər kəskinləşir. Musiqi səslərinin hərəkəti nisbətən tezləşir. Belə bir bədii metodla bəstəkar Nigarın sona qədər öz sevgisinə sadiq qalacağına and içməsini ifadə edə bilmişdir. Nigar surətinin hərtərəfli ifadə olunmasında eynilə Koroğlunun ariyalarını və xüsusilə də operanın üçüncü pərdəsində oxuduğu ariyanı qeyd etmək lazımdır. Qəhrəmanın bu ariyasından bəlli olur ki, Koroğlu heç də yalnız mücadiləçi bir qəhrəman, xalqın azadlığı uğrunda mübarizə aparan barışmaz bir qəhrəman olmayıb, eyni zamanda dərin bir məhəbbətlə, səmimi qəlblə sevən və bu sevgidən doğan və zəfərlər üçün ruhlana bilən bir qəhrəmandır. Hər iki qəhrəmanın musiqi partiyalarındakı melodik-intonasiya bənzərlikləri, eyni zamanda kütləvi xor səhnələrində belə, onların tez-tez orkestrdə səslənməsi, hər şeydən öncə Koroğlu ilə Nigarın ruhən bir-birinə yaxın olması, xalqın istək-arzularını ifadə etmək üçün bəstəkar tərəfindən istifadə olunan mühüm bədii-estetik vasitələrdəndir. Məgər incəliyini bəstəkarın Nizami Gəncəvinin qəzəllərinə əsasən bəstələdiyi "Sənsiz" və "Sevgili canan" musiqili qəzəlləri də yüksək poetik bir dillə qadın ləyaqətini, zərifliyini incəliyini tərənnüm etmirmi? Hər iki musiqili qəzəl öz yüksək bədiiliyi, emosionallığı, son dərəcə ifadəli, axıcı melodiyasına görə vokal lirikasının ən gözəl nümunələri kimi dinləyicilərimizin çox sevdiyi əsərlərdən sayılır.

Qadın mövzusu Üzeyir Hacıbəylinin hər zaman diqqət mərkəzində olmuşdur. Ömrünün son illəri belə, səhhətinin ağırlaşmasına baxmayaraq, bəstəkar "Firuzə" operası üzərində çalışırdı. Operadan yayınlanmış yeganə parça olan Firuzənin ariyası bəstəkarın qadın surətinin daxili aləminə, psixologiyasına nə dərəcə dərindən nüfuz etməsini açıq bir şəkildə ifadə edir. Bu ariya bəstəkarın yaradıcılığında ən parlaq səhifələrdən biri kimi dəyərləndirilir. Söylənənlər qadın surətlərinin Üzeyir Hacıbəyli yaradıcılığında nə qədər geniş bir yer tutduğunu göstərməklə yanaşı, eyni zamanda bəstəkarın qadınlarımızın daxili duyğu aləminin, xarakterinin, istək-arzularının və s. hər yönlü və geniş bir şəkildə bədii dillə ifadə etməyə çalışmasını da unutmamağı təlqin edir. Müxtəlif məzmunlu və biçimli əsərlərdə yaradılmış qadın surətləri dahi bəstəkarımızın gerçəkdən də qadınlarımızın kədəri, hüquq bərabərsizliyi, müstəqilliyi, ictimai yaşamda layiqli yer tutması kimi sosial problemlərin həllinə dərin maraq göstərməsinin bariz nümunəsidir. Təsadüfi deyil ki, bəstəkar hələ 1926-cı ildə yazdığı "Azərbaycan musiqisinin inkişafı" məqaləsində operaların və musiqili komediyaların xalqımızın sosial-mədəni həyatında, tərbiyələnməsində, eyni zamanda dini fanatizmə qarşı mücadiləsində oynaya biləcəyi rolu xüsusilə qeyd edərkən, bu əsərlərin keçmişdə cahilliyin, dini fanatizmin qurbanı olmuş qadınlarımızın azadlıqlarını əldə etməsində, öz hüquq və bərabərliyini tapmasında oynadığı önəmli rolu da vurğulamışdı.

Üzeyir Hacıbəylinin yaradıcılığında öz bədii ifadəsini tapmış qadın surətləri, onların əvvəlki cəmiyyətlərdə acınacaqlı vəziyyəti, dini fanatizmə, sosial haqsızlıqlara, hüquq bərabərsizliyinə və s. qarşı mücadiləsi bir daha bu baxımdan demokratikləşmə yolunu tutmuş cümhuriyyətimizdə meydana gəlmiş əlverişli sosial-mədəni şəraitin formalaşmasının bir arada nə qədər önəmli olduğunu göstərməkdədir. Hazırda sosial-siyasi və mədəni həyatın müxtəlif sahələrində, eyni zamanda elm, sənət, təhsil, mədəniyyət, iqtisadiyyat, idman və s. sahələrdə qadınlarımızın da kişilərlə bərabər fəal şəkildə iştirak etdikləri söylədiklərimizi təsdiqləməkdədir.

**prof. Dr. Babək QURBANOV.**

# ÖMRÜN İZLƏRİ



**Tarixin ağrılı köçü ilə mən Bakıya gələndə (1993) artıq Mədət Məmmədov adlı şairi ədəbi mühit iki kitabı ilə tanıyırdı. Hələlik əl boyda kitabları ona ədəbi mühitdə görünmək üçün kiçik də olsa, bir pəncərə açmışdı. Ayrı-ayrı çayxana künclərində iddialı həmyaşıdlarının bir mövzusu da onun təzə-tər şeirləri, ana qucağından yenicə ayrılmış uşağın şirin kəlmələri kimi müzakirə olunur, yazıları haqqında tənqidli-tərifli rəylər söylənilirdi.**

Bakıya yetdiyim gündən mətbuatla - "Azərbaycan" nəşriyyatı ilə bağlı olduğumdan bu söhbətlərə mən də düşürdüm. Onu görmək, tanış olmaq istəyi də məndə o günlərdən, bir imkan isə 1995-ci ilin dekabrında yarandı. Daha dəqiq desəm, müdrik insan, jurnalistikada ustadımız olan Firidun Rəsulovun rəhbərlik etdiyi "Həyat" qəzetində işə başlayandan sonra biz yaxınlaşdıq. 1996-cı ildə onun Mətbuat və İnformasiya Nazirliyində məsul işdə çalışması "Həyat" qəzeti ilə əlaqələrinin canlanmasına səbəb olmuş və müxtəlif tapşırıqlarla əlaqədar görüşlərimiz başlamışdı. Əvvəlcə mənə elə gəlirdi ki, bu suyu üfürə-üfürə içən adamla (belə təsir bağışlayırdı) heç dost olmağa dəyməz. Çox quru görünürdü. Ancaq həyat göstərdi ki, bu, ilk baxışda belə imiş. Ünsiyyət, münasibətlərin istiləşməsi göstərdi ki, ziddiyyətli, gərgin dövrün mətbuat məmuru kimi, o, bütün hallarda məsuliyyətini unutmur, öz işində dəqiqliyə əməl edir, vəzifə səlahiyyətlərində cavabdehliyini yaddan çıxarmır. Tezliklə onun daxilən necə saf, mənən sağlam, sözündə, əməlində bütöv olduğunu gördüm. Dostluq münasibətlərimiz "Kredo" qəzetinin nəşri ilə ən yüksək zirvəyə çatdı. Dəyərli məsləhətlərini və tövsiyələrini indi də unutmuram. Yaşca məndən kiçik olsa da, artıq onu bir ağsaqqal, yaxın, simsar kimi tanıyır, doğmalıqla qəbul edirdim.

İllər keçdi, çox sular axdı, ancaq bu doğmalığı aramızdan zaman küləkləri də apara bilmədi.

Onun haqqında yekun sözümü demək istəyi məni tərk eləmirdi. Təşəbbüs yenə dostumun özündən oldu. İlk gənclik duruluğunu qoruyub saxlamış, amma illərin öz izini saçında, görkəmində qoymuş dostum yenə ruhən enerjili, yaradıcılıq əzmində idi: "Mənim yaradıcılığım haqqında yazılanları, bir də özümün publisistik qeydlərimi bir kitabda cəmləmək istəyirəm", - dedi. "Çox yaxşı olar", - dedim. "Amma əziyyəti sən çəkəcəksən" - ərkyana əlavə etdi. "Vallah, bilmirəm, gücüm çatar, ya yox", - tərəddüdümü də bildirdim. O, geri çəkilmədi: "Yaxanı kənara çəkmə, sən bacarmayan iş yoxdu. Tərtibçi-müəllif də özün olacaqsan. Çünki mənim haqqımda sən daha çox yazmısan. Bir sözlə, məni yaxşı tanıyırsan". Bu qətiyyətli sözlər mənə güc verdi.

...Və təzədən Mədət Əyyuboğlunun yaradıcılığı ilə bağlı ilk yazılarıma — 10-15 il əvvələ qayıtmalı oldum. İş ərsəyə gəldi. Tərtibçi-müəllif qrifi ilə bu qeydləri yazmağı da özümə borc bildim. Burada onun rəsmi həyat və yaradıcılıq tarixçəsi də yer alır: **Mədət ƏYYUBOĞLU** *(Məmmədov Mədət Əyyub oğlu)* **10 mart 1959-cu ildə Ağdam rayonunun Güllücə kəndində dünyaya göz açıb. Otuz ildir mətbuatda çalışır. Korrektorluqdan Mətbuat və İnformasiya Nazirliyinin Kütləvi İnformasiya Vasitələri Baş İdarəsinin rəisi vəzifəsinədək yol keçib. Beş il - 1996-2001-ci illərdə Baş İdarə rəisi kimi ölkə KİV-lərinə rəhbərlik edib. "Dağ çiçəyi" (1986), "Gələn anam olaydı" (1990), "Dünya mənim dünyam deyil" (1996), "Nağıllar aldadır məni" (2000) adlı kitabların müəllifidir. "Qızıl qələm", "Həsən bəy Zərdabi" mükafatları laureatıdır. İctimai fəaliyyətinə görə 2018-ci ildə Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin "Vətən naminə" medalı ilə təltif olunub.**

**Hər bir ziyalının, xüsusilə də söz, sənət adamının həyatının iki önəmli tərəfi var. Biri onun gündəlik həyat tərzi, işi, əməli fəaliyyəti, yaşam qayğıları... Biri də onun vətəndaşlıq qayğıları, söz-sənət eşqi ilə çağlayan qayğıları. Şair Mədət Əyyuboğlunun mənəvi mühitindəki bu qayğıları illərdir ki, yurd ağrıları ilə müşayiət olunur. Onun doğulub böyüdüyü Qarabağ, Ağdam və doğma kəndi Güllücə də işğal altındadır. Bir şair üçün bu, çəkilməz bir dərd, ölçüyə gəlməz ağrıdır. Sənətkarın həyat yolu - yaşam yolu ilə bağlı faktlar onun əsil tərcümeyi-halına yalnız təskinlik ola bilər. Mədət Əyyuboğlu bu gün, həm də əsgərdir. Sözü ilə yurd uğrunda savaş aparan əsgər.**

Bu kitabda onun poeziyasının və publisistikasının müxtəlif məna çalarları, poetik müşahidələri, publisistik düşüncələri təhlilə çəkilir. Mədət Məmmədovun publisistik yazılarını da fikir və düşüncələrinin tərcümeyi-halı hesab etmək olar və elə bu səbəbdən onun publisistik düşüncələrinə də kitabda ayrıca yer verilmişdir. Şairin poetik və publisistik yaradıcılığı onun həyat yoludur, tərcümeyi-halıdır - qənaəti ədəbi-tənqidi münasibətdə də özünü təsdiqləyir.

* * *

Publisist Mədət Məmmədovla şair Mədət Əyyuboğlunun dili bir-birini tamamlayır. Obrazlı nitq mənanı publisistikada da poeziyada olduğu kimi poetik bir əhvalla təqdim edir. Mədət Məmmədov yüksək dərəcədə mətbuatla iş təcrübəsinə malik publisist-jurnalistdir. Ancaq mətbuatla sıx əlaqə onun obrazlı nitqinə nə qədər müdaxilə etsə də, bu nitqin poetik strukturunu dağıda bilmir. M.Məmmədovun publisistik yazıları, essevarı düşüncələri M.Əyyuboğlunun poeziyası kimi şirinliklə oxunur.

Mədət Məmmədovun müsahibələrində geniş dünyagörüşə, hərtərəfli hazırlığa malik olan ziyalının zəngin mühiti ilə qarşılaşırıq. Məlumdur ki, ekspert qismində çıxış edən hər hansı bir sahə mütəxəssisi dərin biliyə malik olmaqla yanaşı, həm də mövqeyində sabitqədəm olmalıdır. Ayrı-ayrı vaxtlarda müxtəlif mətbu orqanların nümayəndələrinə müsahibələr verərkən o, dövlətə və dövlətçiliyə sədaqət nümayiş etdirir, fəal vətəndaşlıq mövqeyindən danışır. Bu cəhətdən o, maraqlı müsahibdir. Təmsil etdiyi sahəni yaxşı bilir, faktlar əsasında fikrini şərh etməyə üstünlük verir. Bu da onun nitqini, düşüncələrini daha da zənginləşdirir. Güclü məntiqi, əsaslandırılmış fikirlərilə şərh elədiyi məsələlərin mahiyyətinə tam aydınlıq gətirməklə oxucunu, dinləyicini əsl həqiqətə inandıra bilir.

Şair Mədət Əyyuboğlunun poeziyası Qarabağ bulaqlarının suyu kimi dumduru, həzin və nəğməlidir. Qarabağ bulaqları daşların, qayaların arasından süzülüb gəlir. Ona görə də dumdurudur, şəffafdır. Qarabağ bulaqları qayalardan süzülüb gəldiyi üçün həzindir, qurumur, artmır, azalmır. Qarabağ bulaqları nəğməlidir, ona görə ki, yüksəklikdən - qayalardan, daşlardan keçdikcə, şırıltısı ilə könül oxşayır.

Mədət Əyyuboğlunun poetik yaradıcılığı asanlıqla lirik nəğmələrə çevrilir, bəstəyə gəlir. Həssas oxucunun, dinləyicinin ruhuna bir saflıq, duruluq gətirir.

Həyatda yaradıcı insanın hisslərini və duyğularını reallaşdırması üçün onun idealı ilə həyatın real gerçəkliyi arasındakı fərqin əsas amil olduğu unudulmamalıdır. Şair bütün varlığı ilə idealına bağlı olur, idealı tərənnüm etməyə çalışır. Amma real gerçəklik çox vaxt idealın təzahürünü qədərincə təmin etmir. Mədət Məmmədov yaradıcılığı boyu arzu və istəklərini gerçəkləşdirmək naminə gücünü real həyatın çətinliklərinə sinə gərməyə sərf etmişdir. "Arzuları cilovlamaq", "ayağını yorğanına görə uzatmaq", əslində, şairin heç vaxt tabe olmadığı şərtlərdir. Filosof soyuqqanlı yanaşma ilə ziddiyyətlərə açar axtara bilər. Amma şair bu yolla gedə bilmir. O, ziddiyyətləri, bəlkə, olduğundan da artıq sərtliklə göstərə bilir. M.Əyyuboğlunun poeziyasında diqqəti çəkən əsas keyfiyyət də məhz bu yöndə özünü təsdiqləyir.

Yaşamağın dəyəri həyata nə qədər fayda verə bilməklə ölçülür. Hər hansı bir yaradıcı adamın zəkasından gələnlər də həyata, insanlara ayrılan ömür payıdır. Bir sözlə, zəka sahibinin yaradıcılıqda keçən anları onun mənalı anlarıdır. Mədət Əyyuboğlu bir şair kimi, Mədət Məmmədov bir publisist kimi, ictimai xadim kimi və ümumiyyətlə, yaradıcı ziyalı kimi həyata bəsirət gözünü açandan bəri fəaliyyətindən qalmayıb. Yazdıqları, yaratdıqları onun mənalı həyatının izləridir. Yaradıcı adamın izi asanlıqla pozulmur. Çünki söz-iz insanların yaddaşına köçür, ruhuna hopur. Yaradıcının zəka məhsulu cəmiyyətin qida mənbəyidir. Sözünə inam, yaradıcılığına güvənc isə Mədət Əyyuboğlunun güc mənbəyidir.

* * *

M.Məmmədov kifayət qədər tanınan ictimai xadim və mətbuat təşkilatçısı olsa da, onu ədəbi-mənəvi mühit, əsasən, şair kimi qavrayır. Belinskisayağı desək, şairin də ünsiyyət vasitəsi elə duyğuların dilidir. Bu səbəbdən də onun poetik yaradıcılığı müasirlərinin də diqqətini cəlb etmiş, ayrı-ayrı vaxtlarda poeziyasının müraciət etdiyi əsas mövzulara - Vətənin tərənnümü və sevgi lirikası ilə bağlı ədəbi-tənqidi yazılarla münasibət bildirmişlər.

Mədət Əyyuboğlunun publisistikasındakı dil şirinliyi sanki poeziyasında ifadə elədiyi poetik düşüncələrinin açımına xidmət edir. Onun ulu öndər Heydər Əliyev haqqında düşüncələri "Bir ürək yanırdı" adlanır. Bu başlığın özündəki poetik çalar müəllifin obraza poetik yöndən müraciətinin göstəricisidir: *"Sovet dövründə biz orta məktəbdə oxuyanda Maksim Qorkinin "Dankonun ürəyi" adlı bir hekayəsini hələ aşağı sinifdə öyrənirdik. Həmin hekayədə deyilirdi ki, yolu itirmiş, qaranlıq meşədə azıb qalmış insanları Danko adlı bir gənc xilas eləyir. O, ürəyini çıxarıb əlində tutur və qabağa düşür. ürəkdən qalxan alovun işığında yol görünür və insanlar xilas olurlar".* Mədət Məmmədovun çoxlarımıza tanış olan obraza münasibəti yeniyetməlik çağlarından varlığına hopmuş azadlıq işığına can atımı ilə bağlıdır. Və elə bəri başdan onun obraza yanaşması oxucunu çəkir. Elə həmin məntiqlə də sözünə davam edir: *"Elə o vaxtdan məndə belə bir fikir yaranıb ki, ürəkdə od var, işıq var. Kimsə inamı ilə ürəyini - bütün varlığını insanlara həsr edirsə, demək, onun odu-atəşi var, işığı var. Bu işığa üz tutanlar daha doğru yolu görər, həyatın qaranlıqlarında məhv olmazlar".* ...Hər şey aydındır. Demək, müəllifin idealı azadlıqdır. Azadlığın təminatçısı isə xalqa güvənən, xalqın gücünü səfərbər edən liderdir. Mədət Məmmədovun publisistik məntiqində bu fikir bütün parlaqlığı ilə görünür. Bu publisistik əsərdə - "Bir ürək yanırdı" da o, H.Əliyevin xilaskar obrazını təqdim edir. Sadəcə, quru, dadsız sözlərlə danışmır, fikirlərini obrazlı ifadə edir. Onun mətbuatımızın, ədəbiyyatımızın, ümumən, mədəniyyətimizin inkişafındakı yerini özünün düşüncə arenasında kifayət qədər dolğun təqdim edir.

"Böyük yolun davamı - varisliyin təntənəsi" ulu öndər yolunun davamçısı haqqında düşüncələrindən ibarətdir. Bu əsərdə idarəetmə estafetini qəbul etmiş, uğurlu siyasi fəaliyyətilə Azərbaycanı nəinki Qafqazın, eləcə də, dünyanın diqqət mərkəzinə çəkə bilmiş Azərbaycan Prezidenti İlham Əliyevin hərtərəfli fəaliyyətindən danışır. Və xüsusilə, onun mədəniyyətimizin inkişafı naminə Heydər Əliyev irsinə güvəncli olduğunu təqdir edir. Bu əsərdə də müəllif mövzuya yaddaşdan gəlir: *"Qələmə almaq istədiyim mövzu üzərində düşünərkən xəyal məni xeyli qabağa - müəyyən mənada mövzunun əhatəsindən daha əvvəlki dövrlərə apardı. Ağrılı Azərbaycan dövlətçiliyinin süqut qarşısında qaldığı, bir sözlə, olumla ölümün çarpışdığı tarixi dövrlərə. Başsız karvana bənzəyən Azərbaycan xalqı, bəlkə də, həyati göstəriş kimi ulu öndərə üz tutmuşdu. Müxtəlif istiqamətlərə çəkən və ayrı-ayrı mənafelərin istəyinə uyğun siyasi qrupların, partiyaların, dəstələrin çəkişmə meydanına çevrilmiş Azərbaycan demək olar ki, dövlətçilik ənənələrini itirmək təhlükəsi qarşısındaydı. Xalq ayrı-ayrı siyasi qruplardan, mənafe liderlərindən daha artıq olduğunu göstərdi. Dəmir bir sipərə çevrilərək ulu öndərin təhlükəsizliyini təmin elədi, onun Azərbaycanın siyasi rəhbərliyinə gəlişinə yol açdı. Xalq ona inanırdı, çünki o, tarixin sınağından alnıaçıq çıxmış, xalqın bütün zümrələrini ehtiva edən siyasi düşüncə adamı idi".* Doğrudur, düşüncə tarixi xronikanı gözlərimizin önündə canlandırır. Ancaq bu canlandırma sxematik deyil. Müəllif ağrısı ilə qovuşuqdur.

Mədət Məmmədovun "Gözəlliyin əməldə təzahürü" əsərini Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın uğurlu siyasi, mədəni, mənəvi fəaliyyətinin tərənnümü də adlandırmaq olar: *"Bir qələmdi, bir kağız. Sakit, səssiz bir otaq..."* Yazı bu cümlələrlə başlanır. Sonra mənbələri diqqətə çəkir və birbaşa mətləbə keçir: *"Elə kitab, elə yazı olur ki, üzərində dayanıb düşünməli oluram. Yaxşı başa düşürəm ki, mən XXI əsrin fenomeni Mehriban xanım Əliyeva haqqında yazmaq istəyirəm. Əlbəttə, istək bir şeydir, o istəyi icra eləmək, həyata keçirmək tamam başqa şey. İstəyi reallığa çevirmək üçün gərək hər ümmandan bir damla götürə biləsən. Vaxtilə Nizami Gəncəvi də deyirdi ki: "Oxudum, oxudum, sonra da vardım, Hər gizli xəznədən bir dürr qopardım". Elə bil ki, mənim indim üçün deyilib. Bütün mənəvi ölçülərin aliliyində, ucalığında dayanan hər nə varsa, hamısı and yeridir".* Sağlam düşüncədən gələn yolda görünən işıq. Zənnimcə, bu cür yanaşma Mədət Məmmədovun təkcə bu əsərinə deyil, bütün publisistikasına aiddir.

Ümumiyyətlə, M.Məmmədov ədəbi-publisistik yazılarında düşüncələrindən yazıya gətirdiyi obraza sevgi ilə yanaşır. Biz bu yanaşmanı onun müəllimi Mir Cəlal haqqında ədəbi-publisistik düşüncələrində də görürük. Xalq yazıçısı Elçinə həsr etdiyi qeydlərində də səmimiyyəti diqqəti cəlb edir. Mədət Məmmədovun bir neçə publisistik yazısını oxumaq bəs eləyir ki, onun necə bir kəsərli söz sahibi olduğunu biləsən.

...Müasirim olan ziyalının şair-publisist obrazını bütövlükdə görə bilmək üçün sərraf nəzərli dəyərli oxucu diqqəti və səmimi yanaşma bəs eləyər.

...Və bu yerdə deməliyəm ki, fəal həyat mövqeyi şair Mədət Əyyuboğlu ilə publisist Mədət Məmmədovu birləşdirir.

...Birləşmə bütövlük yaradır. Bütövlük isə güc deməkdir.

**Əli Rza XƏLƏFLİ,**
**şair-publisist.**

# Sağlamlığımızı qoruyaq!

Bu gün bəşəriyyətin qarşısında duran ən böyük problemlərdən biri də tütün məmulatlarından istifadə edilməsidir. Onun insan orqanizminə zərərli təsiri haqqında kifayət qədər təbliğat aparılır. Tütün istifadəçiləri arasında ağciyər, ürək-damar xəstəliklərinin inkişafına, həmçinin bronxial-astma, xroniki bronxit, emfizema və bir çox xəstəliklərin yaranmasının səbəbi tütün məmulatlarından istifadə edilməsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 05 iyul 2018-ci il tarixdə imzaladığı "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Fərmanından irəli gələn vəzifələrin icrası ilə bağlı Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılmasına dair" planına uyğun olaraq Nərimanov Rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən rayon Mənzil-Kommunal Təsərrüfat Birliyinə məktub ünvanlanmışdır. Həmin məktubda dövlət tabeliyində olan məişət obyektlərində, xüsusi xidmət müəssisələrində, idman yarışları və başqa kütləvi tədbirlər keçirilən binalarda, obyektlərdə, habelə onların ərazilərində, oxu zallarında, kitabxanalarda, habelə digər mədəniyyət obyektlərində, uşaq meydançalarında, yerüstü və yeraltı piyada keçidlərində, liftlərdə və çoxmənzilli yaşayış binalarının ümumi istifadəsində olan yerlərində və digər müəssisə, idarə, təşkilatlarda hamının yaxşı görə biləcəyi lövhələrdə "Tütün çəkmək qadağandır!" yazısının, işarəsinin və ya reklamın yerləşdirilməsi işinin təşkil olunması barədə tələb və təkliflər verilmiş, seminarlar, müşavirələr keçirilmiş, müvafiq maarifləndirmə işləri aparılmışdır.

İctimai yerlərdə və parklarda tütünün sağlamlığa mənfi təsiri barədə reklam və stendtlərin yerləşdirilməsi ilə əlaqədar tərəfimizdən monitorinqlər aparılmışdır. Araşdırmalarımız zamanı "Nərimanov", "Gənclik", "Ulduz" metrostansiyalarının giriş hissəsi, Z.Bünyadov prospekti boyunca yerləşən piyada keçidləri, eyni zamanda rayon ərazisində yerləşən yeraltı keçidlər "Tütündən istifadə qadağandır!" yazısı və lövhələri ilə təmin edilmişdir. Hazırda bu istiqamətdə işlərimiz davam etdirilir. Tərəfimizdən verilən tələb və təklifləri yerinə yetirməyən müəssisələrin məsul şəxsləri haqqında İnzibati Xətalar Məcəlləsinin 212.2 maddəsinə əsasən inzibati tədbirlərin görülməsi həyata keçiriləcəkdir.

**Zirəddin ƏLİYEV,**
**Nərimanov Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin sanitariya və gigiyena şöbəsinin müdiri.**

## DÜNYA BUGÜN
FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

### ABŞ PKK-ya HAVA HÜCUMUNDAN MÜDAFİƏ SİSTEMLƏRİ GÖNDƏRİB



ABŞ prezidenti Donald Trampın qoşunlarını Suriyadan çıxacağı ilə bağlı açıqlamasına baxmayaraq Birləşmiş Ştatlar bölgədəki hərbi mövcudluğunu daha da gücləndirib. "Sputnik" informasiya agentliyinin Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, bölgədə yeni müşahidə məntəqələri quran ABŞ-ın Müdafiə Nazirliyi terror təşkilatı PKK/YPG-yə qabaqcıl hərbi texnika və silah sistemləri göndərib.

Verilən xəbərə görə, Pentaqon İŞİD-ə qarşı əməliyyatlar başa çatdıqdan sonra İraq ordusunun xidmətindəki silah və texnikaları geri alaraq, həmin texnika və silahların əksəriyyətini Suriyanın şimalındakı PKK/YPG terrorçularına göndərib.

Eyni zamanda, bildirilir ki, silahların terrorçuları göndərilməsi Donald Trampın 2018-ci il dekabrın 19-da "Suriyadan çıxırıq" açıqlamasından 12 gün sonra başlayıb.

Pentaqon sözçüsü Şon Robertson da terror təşkilatına silah və texnikanın göndərilməsini təsdiqləmiş, lakin, təfərrüatlarını açıqlamamışdı. Robertson ötən ay verdiyi açıqlamada deyib: "Fərat çayının şərqində nəzarəti tamamilə ələ keçirmək üçün Suriya Demokratik Qüvvələrinin kifayət qədər avadanlıq və silahlarla təmin edilməsi çox mühümdür".

Bununla yanaşı, verilən xəbərə görə, bölgədəki mənbələr də silahların daşınmasını təsdiqləyir. Son üç aya yaxın bir vaxtda İraqdan Suriyadakı PKK-ya 2500 yük avtomobili silah-sursat və hərbi texnika göndərilib. Bu daşınmalar ancaq gecələr, lakin əvvəllər gündüz saatlarında da həyata keçirilib. Məlumata əsasən, son günlərdə bu daşınmalarda fəallıq müşahidə olunur.

Digər tərəfdən, bildirilir ki, ABŞ-ın bölgəyə inkişaf etmiş hava hücumundan müdafiə sistemi daşıdığı iddia edilir. Bu, Suriyanın şimalında PKK-nı qorumaq üçün Türkiyənin iştirakı olmadan təhlükəsiz bölgə planı əsasında baş verib.

Məlumata əsasən, sözügedən hava hücumundan müdafiə sistemlərindən Türkiyənin pilotsuz uçuş aparatlarına mane olmaq üçün istifadə ediləcək. Belə ki, Türkiyə Fərat çayının şərqinə qarşı əməliyyat üçün terror fəaliyyətlərini izləməkdədir.

### BÖYÜK BRİTANİYADA SƏRMAYƏÇİLƏRƏ VİZA ŞƏRTLƏRİ SƏRTLƏŞİR



Böyük Britaniyada çirkli pulların yuyulmasına qarşı mübarizə çərçivəsində sərmayəçilərə viza verilməsi şərtləri sərtləşdirilir. "Report" agentliyinin "The Financial Times" nəşrinə istinadən verdiyi xəbərə görə, "Tier 1" adlı viza ilə əvvəllər ölkəyə gələn bir çox rusiyalı və çinli sərmayəçilərin burada məskən salmasına baxmayaraq, bundan sonra xarici ölkələrdən gələn sərmayəçilərə qarşı daha sərt tələblər irəli sürüləcək.

Məlumata görə, həmin tədbirlərin Solsberi şəhərində rus hərbi kəşfiyyatının keçmiş zabiti Sergey Skripalın Rusiya istehsalı olan maddə ilə zəhərlənməsindən sonra bu ölkə ilə münasibətlərdəki gərginliyin nəticəsi olduğu bildirilir.

Böyük Britaniyanın Daxili İşlər Nazirliyi tərəfindən gələn ay tətbiq ediləcək yeni qaydalara görə, "Tier 1" dərəcəli sərmayəçi vizasını almaq üçün 2 milyon funtdan çox vəsaiti əvvəlki kimi 90 gün ərzində yox, azı 2 il ərzində idarə etmək barədə dəlillər təqdim olunmalı, sərmayə isə qiymətli kağızlara yox, müəssisələrə qoyulmalıdır.

### GÜRCÜSTANLI NAZİR: ƏCNƏBİLƏRƏ QOYULAN QADAĞA ƏDALƏTLİDİR



"Gürcüstanda torpaq sahələrinin əcnəbi vətəndaşların adına qeydiyyata alınmasının məhdudlaşdırılması investisiyalara mənfi təsir göstərməyib". "Report" agentliyinin verdiyi xəbərə görə, bu barədə Gürcüstanın ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri Levan Davitaşvili parlamentdə çıxışı zamanı bəyan edib.

Nazirin sözlərinə görə, kənd təsərrüfatına xarici investisiyaların cəlb olunması əsas vəzifələrdən biridir. Levan Davitaşvili deyib: "Kənd təsərrüfatı torpaqları ilə bağlı ölkə konstitusiyasına edilmiş dəyişikliklərdən sonra bu sahədə investisiyalar sabit olaraq qalır. Hesab edirəm ki, bu dəyişikliklər mülkiyyət məsələsini düzgün və ədalətli olaraq tənzimləyir. Bizim vətəndaşlar kənd təsərrüfatı torpaqlarının saxlanılması ilə bağlı məsuliyyət daşıyır və bu sahədə əcnəbilərin də müxtəlif formada iştirakına imkan yaradılır. Bu, düzgün və balanslaşdırılmış yanaşmadır".

Qeyd edək ki, Gürcüstanda ötən il dekabrın 16-da qüvvəyə minmiş yeni konstitusiyaya əsasən, kənd təsərrüfatı torpağı sosial resurs kimi yalnız dövlətə, özünüidarəetmə vahidinə, Gürcüstan vətəndaşı və ya Gürcüstan vətəndaşlarının birliyinə məxsus ola bilər. Bununla da ölkənin əsas qanunu ilə kənd təsərrüfatı torpaqlarının xarici vətəndaşlara satılması tam qadağan olunub.

Hazırda ölkədə, təxminən, 45-50 min hektar aqrar torpaq sahələri əcnəbilərin mülkiyyətindədir. Ölkə parlamentində əcnəbi torpaq sahiblərinə qarşı müəyyən sanksiyaların, o cümlədən öhdəliklərin yerinə yetirilməyəcəyi təqdirdə, torpaqların müsadirə olunmasının tətbiqi məsələsi müzakirə edilir.

### AĞ EV XUAN QUAYDONU DƏSTƏKLƏDİYİNİ YENİDƏN BƏYAN EDİB



ABŞ Venesuelada özünü dövlət başçısı elan edən Xuan Quaydonu dəstəklədiyini bir daha bəyan edib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Ağ Evdən bununla bağlı verilən bəyanatda deyilir: "ABŞ Venesuelada Xuan Quaydo rəhbərliyindəki demokratik keçidi və parlamenti yüksək səviyyədə dəstəkləyir. Həmçinin bu keçidi dəstəkləmək üçün yeni diplomatik və iqtisadi yollar axtarır".

Venesuela prezidenti Nikolas Maduro ilə əməkdaşlıq edən digər ölkələrə isə sanksiya tətbiq ediləcəyi vurğulanan bəyanatda bildirilir: "Nikolas Maduronun xalqın həyatını oğurlamasına imkan verməyəcəyik".

Donald Trampın milli təhlükəsizlik məsələləri üzrə məsləhətçisi Con Bolton da "Twitter" vasitəsilə mütəmadi olaraq Xuan Quaydonun lehinə olan paylaşmalarına davam edir. Bolton son dəfə Quaydonun dövlət başçısı Maduroya qarşı şənbə günü keçirmək istədiyi etiraz aksiyalarına dəstək verdiyini bildirmişdi.

### HİNDİSTAN İRANLA BAĞLI ABŞ-la DANIŞIQLARA BAŞLAYIB



Hindistan İrana qarşı sanksiyalarla bağlı möhlət hüququnun uzadılması üçün ABŞ-la danışıqlara başlayıb. "Report" agentliyinin məlumatına görə, buna səbəb rəsmi Dehlinin Tehrandan bundan sonra da gündəlik 300 min barrel neft idxal etmək istəyidir.

Verilən xəbərə görə, ABŞ ötən ilin noyabrında İrana qarşı sanksiyalarla bağlı möhlət verdiyi 8 neft idxal edən ölkə ilə danışıqlar aparır. Danışıqlarda İrandan neft idxalının tam dayandırılması məsələsi müzakirə olunur.

Xatırladaq ki, 2018-ci ilin may ayında ABŞ İranın nüvə proqramına dair razılaşmadan çəkilərək həmin ölkəyə qarşı bütün sanksiyalarını, o cümlədən Tehranla dolayı yolla ticarət aparan ölkələrə qarşı nəzərdə tutulan sanksiyaları bərpa etdiklərini açıqlamışdı.

İran neftinin idxalına qoyulan embarqodan bu ilin mayın 5-dək Çin, Hindistan, Yaponiya, Cənubi Koreya, Tayvan, Türkiyə, İtaliya, Yunanıstan möhlət əldə edib.

### İRAN HAKERLƏRİ 200-dən ÇOX ŞİRKƏTƏ HÜCUM EDİB



Son iki ildə dünyada 200-dən çox şirkət İran hökuməti ilə əlaqəli olduğu güman edilən hakerlər qrupunun hücumlarına məruz qalıb. "Report" agentliyinin "Deutsche Welle" nəşrinə istinadən verdiyi xəbərə görə, bu barədə "Microsoft" korporasiyasının araşdırmasında bildirilir.

Hakerlər əsasən neft-qaz şirkətlərinə, maşınqayırma müəssisələrinə, eləcə də Almaniya, Səudiyyə Ərəbistanı, Böyük Britaniya, Hindistan və ABŞ kimi ölkələrdə beynəlxalq bizneslə məşğul olan konsernlərə hücum ediblər.

Eyni zamanda, korporasiyanın məlumatına görə, iranlı hakerlərin vurduğu ümumi zərər 100 milyonlarla dollara çatıb.

Ekspertlərin dəyərləndirməsinə görə, hücumların arxasında İran hökuməti ilə əlaqəsi olan "Holmium" haker qrupu dayanıb. Araşdırmada həmçinin "Holmium"un tapşırığı ilə başqa bir haker qrupunun - "APT33"ün də müəyyən əməllərinin olduğu göstərilib. ■

# 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir

### Gəncə

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə xanımları təbrik edərək, onlara cansağlığı, uzun ömür arzulayıb. O bildirib ki, qadınlar ölkə tarixinin bütün dövrlərində xalqın taleyüklü məsələlərinin həll edilməsinə öz töhfələrini veriblər. Bu gün də kişilərlə çiyin-çiyinə çalışan qadınlar, ölkənin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayırlar.

Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Elnur Rzayev çıxışında xanımlara işlərində uğurlar və yüksək nailiyyətlər arzuladı. O qeyd edib ki, Azərbaycan qadını müasir cəmiyyətin inkişafına əvəzsiz töhfələr verir. Hazırda cəmiyyət həyatının elə bir sahəsi yoxdur ki, qadınların fəaliyyəti olmadan orada müvəffəqiyyətlər qazanılsın, uğurlar əldə edilsin.

Görüşdə Gəncə Şəhər İcra Hakimiyyətinin mətbu orqanı olan "Gəncənin səsi" qəzetinin baş redaktoru Rəfiqə Sadıqova xüsusi təbrik edilib. Belə ki, "Qızıl qələm", "Həsən bəy Zərdabi" Ali ədəbi mükafatları laureatı, "Tərəqqi" medallı, Prezident mükafatçısı, Ali Media Mükafatçısı və ən nəhayət, peşəkar jurnalist bu günlərdə 70 yaşını qeyd edir. Bu münasibətlə Rəfiqə Sadıqovaya Gəncə Şəhər İcra Hakimiyyəti başçısının "Fəxri fərman"ı təqdim edilib.

Xanımlar adından çıxış edən Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Vəfa Abbasova göstərilən diqqətə görə minnətdarlığını bildirib. O qeyd edib ki, bəşər sivilizasiyasının inkişafında və müasir səviyyəyə çatmasında kişilərlə bərabər, qadınların da əvəzsiz rolu olub. Azərbaycan qadını öz zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, vəfası, yüksək analıq keyfiyyəti ilə hər zaman xalqımızın adını uca tutub. Qadın gələcəyə açılan qapı, körpüdür. Gənc nəslin təlim-tərbiyəsində qadınların rolu danılmazdır.

Görüşün sonunda qadınlara Gəncə Şəhər İcra Hakimiyyəti başçısının adından gül və bayram hədiyyələri təqdim edilib.

**Zabit XƏLİLOV,**
**"Respublika"**

### Ağstafa

8 Mart — Beynəlxalq Qadınlar Günü münasibəti ilə Ağstafa şəhəri "Yazıçılar Evi"ndə geniş bayram tədbiri təşkil olunub. Tədbirdə rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Tədbiri giriş sözü ilə açan RİH başçısı bütün xanımları gözəl bayram münasibəti ilə səmimi qəlbdən təbrik edərək, fəaliyyətlərində uğurlar arzu edib.

Rayon rəhbəri çıxışında bildirdi ki, zəriflik və gözəllik rəmzi olan qadın adı, ana adı tarix boyu vətənimizdə həmişə uca tutulubdur Azərbaycan qadını bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və yaşadılmasında müstəsna xidmətlər göstərib. Azərbaycanda qadına - anaya daim böyük ehtiram və hörmət bəslənmiş, ana həmişə müqəddəs olmuş, namus, qeyrət rəmzi sayılmışdır. Ulu öndər Heydər Əliyev qadınların xidmətlərini - gənc nəslin sağlam, vətənpərvərlik ruhunda böyüməsində sərf etdikləri əməyi hər zaman yüksək qiymətləndirərək, onlara daim böyük diqqət və qayğı göstərmişdir. Müasir dövrümüzdə Azərbaycan qadını ölkənin ictimai-siyasi həyatında fəal rol oynayan bir varlıqdır. Bu gün Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Mehriban xanım Əliyeva bütün dünyaya sübut edir ki, Azərbaycan qadını həm gözəl ana, həm də fəal ictimai xadimdir.

Tədbirdə həmçinin rayonun ictimai-siyasi həyatında fəal iştirak edən qadınlar rayon icra hakimiyyətinin "Fəxri Fərman"ları və qiymətli hədiyyələri ilə təltif olunmuşlar. Ağstafalı xanımlar ölkəmizdə qadınlara göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını ifadə ediblər.

Tədbir rayonun mədəniyyət və incəsənət nümayəndələrinin ifasında geniş konsert proqramı ilə davam etdirilib.

### Tərtər

Bayram süfrəsi arxasında keçirilən tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, idarə, müəssisə və təşkilatlarda çalışan qadınlar, şəhid anaları, ağbirçəklər iştirak ediblər.

Tədbirdə çıxış edən Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov zərif cinsin nümayəndələrini bayram münasibətilə təbrik edib, qadınlara göstərilən dövlət qayğısından, onların cəmiyyətimizdə tutduqları yüksək mövqedən bəhs edib. Bildirilib ki, milli-əxlaqi dəyərlərimizin, adət və ənənələrimizin keşiyində şərəflə dayanan qadınlarımız Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firavan və qüdrətli bir dövlətə çevirmək yolunda əlindən gələni əsirgəmirlər.

İndi Azərbaycan qadınlarının səsi dünyanın hər yerindən eşidilir. Biz bunu Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın timsalında daha aydın görürük. O, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiridir. Mehriban xanım Əliyevanın təhsilimizin, mədəniyyətimizin inkişafında, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında misilsiz xidmətləri var. Mehriban Əliyeva istər ölkəmizdə, istərsə də vətəndən uzaqlarda öz işi, bacarığı və əvəzsiz keyfiyyətləri ilə Azərbaycan xanımlarını ən yüksək səviyyədə təmsil edir.

Rayon rəhbəri ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan qadınına həmişə yüksək qiymət verdiyini, hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, ölkəmizin hər yerində olduğu kimi, tərtərli qadınlar da rayonun ictimai-siyasi və mədəni həyatında fəal iştirak edirlər. Rayon əhalisinin 50,4 faizini qadınlar təşkil edir. Rayon qadınlarının 4299 nəfəri təhsil, səhiyyə, mədəniyyət müəssisələrində və digər sahələrdə, 55 nəfəri dövlət qulluğunda çalışır. Rəhbər vəzifədə 55 nəfər qadın işləyir. Təhsilin inkişafında xidmətlərinə görə 7 qadın "Əməkdar müəllim" adına layiq görülüb, 9 qadın "Tərəqqi" medalı ilə təltif olunub.

Tədbirdə rayon polis şöbəsinin rəisi Elçin Qasımov, rayon ağbirçəyi Sofiya Həsənova, şəhid anaları Maya İsgəndərova, Zəlimə Əsədova və digərləri çıxış edərək qadınları bayram münasibəti ilə təbrik edib, ölkəmizdə qadınlara göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər.

Tədbirdə Tərtər Rayon İcra Hakimiyyəti və YAP rayon təşkilatı tərəfindən rayonun ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup qadına, şəhid anaları və ağbirçəklərə qiymətli hədiyyələr, Fəxri fərmanlar verilib.

Rayon mədəniyyət mərkəzinin hazırladığı rəngarəng musiqi nömrələri tədbiri daha da rövnəqləndirib.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# 8 Martla bağlı özəl gün: çıxarışlar xanımların ünvanlarında təqdim edildi

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan xanımı, xüsusilə şəhid ailələrindəki qadınlar, Qarabağ müharibəsi əlillərinin həyat yoldaşları diqqət və qayğı ilə əhatə olunublar. Hazırda xanımlar müxtəlif sferalarda aparıcı qüvvəyə çevrilib, ictimai-siyasi hadisələrin fəal iştirakçısıdır, respublikamızın iqtisadi gücünün, elmi-intellektual potensialının artmasına xidmət edir. Əmlak Məsələləri Dövlət Komitəsi də qadınlara göstərilən qayğının bariz nümunəsi kimi 7 mart tarixində sosial tədbirlə yadda qalıb. Belə ki, həmin gün Əmlak Xidmətləri Məkanına gələn xanımlara gül və rəmzi hədiyyələr verilib.

Bundan başqa, Komitə 8 Mart — Beynəlxalq Qadınlar Günü münasibətilə xüsusi qayğıya ehtiyacı olan xanımları, o cümlədən şəhid ailələrini, Qarabağ müharibəsi əlillərinin həyat yoldaşlarını, ahılları, fiziki məhdudiyyətli qadınları, tənha anaları fərqli üsulla təbrik edib.



Belə ki, Beynəlxalq Qadınlar Günü münasibətilə xanımlar üçün birbaşa ünvanlarda qeydiyyat xidməti ilə bağlı sosial aksiya keçirilib. Bu kampaniya çərçivəsində şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinin həyat yoldaşlarına, o cümlədən fiziki məhdudiyyətli qadınlara birbaşa olaraq yaşadıqları ünvanlarda qeydiyyat xidmətləri göstərilib. Komitənin əməkdaşları xüsusi nəqliyyat vasitələri ilə paytaxtla yanaşı, respublikanın bir neçə rayonlarına gedərək yaşlı qadınlara, tənha analara evlərindəcə əmlaklarına dair hazır çıxarışlar təqdim ediblər. Verilən çıxarışlar əsasən mənzilləri, fərdi yaşayış evlərini, pay torpaqlarını, həyətyanı torpaqları əhatə edib.

Çıxarışların təqdim edilməsi ilə yanaşı, komitə əməkdaşları xüsusi qayğıya ehtiyacı olan bir neçə qadından mülkiyyət hüququnun təmin olunması üçün lazımi sənədləri toplayıblar. Kampaniya çərçivəsində komitənin hüquqşünasları xanımlara yardımçı olublar, onların qeydiyyat prosesi və sənədlərlə bağlı suallarını cavablayıb, sənədlərin necə əldə edilməsi, hansı qurumlara müraciət edilməsi ilə bağlı istiqamət veriblər. Qadınlar sənədləşdirmənin sürətli və rahat şəkildə aparılması, xidmətlərin birbaşa ünvanlarına çatdırılmasından razılıqlarını ifadə ediblər.

**Nəriman CAVADOV,**
**"Respublika".**


**Salyan Rayon Mərkəzi Xəstəxanası 2019-cu ildə səhiyyə müəssisələrinin əsaslı təmirinin, yumşaq və bərk inventarların, digər maşın və avadanlıqların satınalınması ilə əlaqədar**

**AÇIQ TENDER ELAN EDİR**

**Lot-1.** Yumşaq inventarların və geyim ləvazimatlarının satınalınması
**Lot-2.** Bərk İnventarların satınalınması
**Lot-3.** Əsaslı təmir xərclərinin satınalınması
**Lot-4.** Digər maşın və avadanlıqların satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, lotlar üzrə öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Salyan rayonu Kürqaraqaşlı kəndi ünvanından (əlaqələndirici şəxs: Sadıqov Cəlal Qaraş oğlu, telefon: 0-2125-5-46-99) ala bilərlər.

**Lot-1. 70 manat**
**Lot-2. 70 manat**
**Lot-3. 90 manat**
**Lot-4. 70 manat**

*Təşkilat: Salyan Rayon Mərkəzi Xəstəxanası*
*VÖEN: 7000158881*
*Salyan Rayon Yerli Xəzinədarlıq Orqanı.*
*Hesab: AZ12AİİB32051029444300201143*
*VÖEN: 7000035491*
*Bank: "Kapitalbank" Salyan filialı*
*Kodu: 200435*
*VÖEN: 9900003611*
*M/H: AZNABZ01350100000000001944*
*SWİFT BİK AİİBAZ 2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 26 aprel 2019-cu il saat 17.00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 02 may 2019-cu il saat 17.00-a qədər Salyan Rayon Mərkəzi Xəstəxanasına (ünvan: Salyan rayonu Kürqaraqaşlı kəndi) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 03 may 2019-cu il tarixdə, saat 11.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**



**Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu**

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

**Maddə 226 300 Elmi-tədqiqat işlərinin görülməsi**

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 11.03.2019-cu ildən 30.03.2019-cu ilədək qəbul olunur.

**Ünvan:** *Gəncə ş. Ə.Əliyev 91*
**Tel.:** *257 73 75*
**Əlaqələndirici şəxs:** *Məmmədova U.C.*



"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin 21 yanvar 2019-cu il tarixdə keçirdiyi Açıq tenderin Lot-5 üzrə qalibi "Networks Europe" LP ilə müqavilə bağlanmışdır.

**Tender Komissiyası.**



Naxçıvan MR Sədərək rayonu Qaraağac kənd sakini Həsənov Niyazi Hüseyn oğlunun adına verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət aktı (JN-452; kod-30310018) itdiyi üçün etibarsiz sayılır.


**ALLAH RƏHMƏT ELƏSİN**

**Maqsud Qasımov, Kamilə xanım, Aybəniz, Xumar və Kamil Rəhimə, Firudinə və Rəsulovlar ailəsinə, əzizləri**
**NURƏDDİN RƏSULOVUN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağının rəhbərliyi və kollektivi Əməkdar elm xadimi, kimya üzrə elmlər doktoru, professor Siracəddin Sərkərova və böyük elmi işçi Elmira Zeynalovaya, əzizləri**
**AYDAN xanımın**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**


Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.



● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Hümmət MUSAYEV

● Çapa imzalanmışdır
09.03.2019